

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 174 (7429) / Çərşənbə axşamı, 24 sentyabr 2019-cu il





## Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir

Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə bu reallığı da əsaslı şəkildə diqqətə çatdırmışdır ki, neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu

Bax: Səh.3

## Siyəzəndə SOCAR-ın növbəti ekoloji layihəsi uğurla həyata keçirildi



⇨ Bax: səh. 5

## Birinci vitse-prezident Mehriban Əliyeva Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının iştirakçılarına müraciət ünvanlayıb



⇨ Bax: səh. 2

## Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır



⇨ Bax: səh. 6

Bax: səh. 7

## Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilib



Bax: səh. 2



## "Azəri-Çıraq-Günəşli" dünya səviyyəsində texnologiyaların parlaq nümunəsidir

Bax: səh. 9



*Vüqar Rəhimzadə:*

## "Əsrin müqaviləsi" Azərbaycana yeni dostlar, tərəfdaşlar qazandırdı


12 Paşinyanın özünüifşa mərhələsi başlayıb

13 Əli Kərimlinin troll dəstəsi özünü ifşa etdi

16 Brayl əlifbası necə yaranıb?

## Quba-Qusar-Alpay-Kürkün-Susay avtomobil yolunun tikintisinə 13,4 milyon ayrıldı



Prezident İlham Əliyev Quba rayonunun Quba-Qusar (9 km)-Alpay-Kürkün-Susay avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, beş min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Quba-Qusar (9 km)-Alpay-Kürkün-Susay avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,4 milyon (on üç milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşüb



Xarici İşlər naziri Elmar Məmmədyarovun Nyu-Yorkda ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar, eləcə də münaqişə zonasındakı vəziyyət və ümumilikdə, münaqişənin tənzimlənməsi üzrə həmsədrlərin gələcək fəaliyyət planları və perspektivləri müzakirə edilib.

## "Azəri-Çıraq-Günəşli" dünya səviyyəsində texnologiyaların parlaq nümunəsidir



"Azəri-Çıraq-Günəşli" Azərbaycan və bütün Xəzər regionu üçün əlamətdar müqavilə olub.

Bunu Trend-ə "S & P Global Platts" şirkətinin enerji və SOCAR üzrə ixtisaslaşan kredit analitiki Yelena Anankina "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi münasibətilə deyib.

O bildirib ki, 25 ildən sonra da bu müqavilə ölkənin neft sənayesinin aparıcı elementi kimi qalmaqdadır, beynəlxalq əməkdaşlığın və dünya səviyyəsində texnologiyaların parlaq nümunəsidir.

Y.Anankina əlavə edib ki, davam edən stabil ixrac Dövlət Neft Fondunun gəlirlərini möhkəmləndirir, eyni zamanda, yerli qaz təchizatı ölkə üçün səmərəlidir.

## Əlahiddə Ümumqoşun Orduda döyüş atışlı taktiki təlimlər keçirilib



"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən Əlahiddə Ümumqoşun Ordunun artilleriya, reaktiv və tank əleyhinə batareyaları ilə döyüş atışlı taktiki təlimlər keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş tapşırığının icrasına yaxınlaşdırılmış şəraitdə keçirilən təlimlərdə əsas məqsəd zabitlərin ixtisas biliklərinin təkmilləşdirilməsinə və batareyaların daim döyüşə hazır olmasına yönəldilib.

Planlı və plandankənar hədəflərin tam dəqiqliyi ilə məhv edildiyi təlimlərdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

### Prezident İlham Əliyev:

# Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 88-ci kitabındakı materiallar 2018-ci ilin iyunundan avqust ayınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın uğurla təmsil olunduğu tədbirlərdən biri Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı olub. Prezident İlham Əliyev Zirvə toplantısında çıxış edərkən Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Prezidentin Zirvə toplantısında dərin məzmunlu çıxışının mətni 88-ci kitaba daxil edilib.

Kitabda Prezident İlham Əliyevin NATO-nun Zirvə toplantısında iştirak etmək üçün Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşləri barədə informasiyalar, NATO-nun Əfqanıstanda qətiyyətli dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə çıxışının mətni, Fransa və Qazaxıstana səfərlərindən bəhs edən materiallar yer alıb.

Oxucu nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Türkiyə, İtaliya, Tacikistan prezidentləri, Almaniyanın Federal Kansleri ilə apardığı danışıqlar, mətbuata bəyanatların mətnləri, ölkələr arasında saziş və müqavilələrin imzalanmasına dair materiallarla da tanış ola bilər. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ olaraq qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Çoxcildliyin 88-ci kitabında ölkə rəhbərinin Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası polis orqanlarının şəxsi heyətinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə Konstitusiya Məhkəməsinin kollektivinə təbrik məktubları və digər məktublar yer alıb.

Bu nəşrdə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqlərinin mətnləri, Şamaxı, İsmayıllı rayonlarına səfərlərinə dair materiallar da toplanıb.




Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 88-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Birinci vitse-prezident Mehriban Əliyeva Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının iştirakçılarına müraciət ünvanlayıb

Birinci vitse-prezident Mehriban Əliyeva Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının (IAEA 2019) iştirakçılarına müraciət ünvanlayıb.



Trend-in məlumatına görə, müraciəti konfransın açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Müraciətdə deyilir: "Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə səmimi qəlbdən salamlayıram. Belə mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm.

Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusuna həsr olunan hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın təhsil sistemində son illərdə bir sıra uğurlar qazanılmışdır. Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə, eyni zamanda, beynəlxalq qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq lazımi araşdırmalar aparılmış və bu istiqamətdə normativ-hüquqi baza təkmilləşdirilmişdir.

Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınızda qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaqdır.

Hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram".

# Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir

***Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə bu reallığı da əsaslı şəkildə diqqətə çatdırmışdır ki, neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu***




**"Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük. Görürük ki, ulu öndər Heydər Əliyevin bütün başqa xidmətləri ilə bərabər, bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz - onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk. Bu gün yeni kontraktlar imzalanır, Azərbaycanın neft-qaz sənayesinə böyük maraq var. Azərbaycan beynəlxalq əməkdaşlıq sahəsində, enerji sahəsində böyük uğurlar əldə edib."** Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə 25 ilin təhlili fonunda qeyd etmişdir ki, Azərbaycan nefti bu gün müstəqil Azərbaycan dövlətinə xidmət göstərir. "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin yeni mərhələyə qədəm qoymasına şərait yaratdı.

Diqqəti müstəqilliyimizin ilk illərində yaşananlara yönəldən ölkə Prezidenti vurğulamışdır ki, gənc müstəqil Azərbaycan dövləti çox böyük çətinliklərlə, çağırışlarla üz-üzə qalmışdı. O vaxtkı hakimiyyətin səriştəsizliyi, yarıtmaz fəaliyyəti, xəyanətkar addımları ölkəmizi uçurum kənarına qoymuşdu. 1991-1993-cü illər ağır faciəli illər kimi tariximizdə qalacaq. Ölkəmizi siyasi, iqtisadi böhran bürümüşdü. İqtisadi sahədə yaşanan tənəzzül gənc müstəqil ölkəmizin inkişafı üçün çox böyük maneələr yaratmışdı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın tarixində yeni mərhələnin əsasını qoydu. O vaxtdan başlanan inkişaf, tərəqqi bu gün Azərbaycanın ən yüksək zirvələri fəth etməsini şərtləndirir. Ümummilli lider Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, fədakarlığı Azərbaycanı bütün bəlalardan xilas etdi. Ölkəmizin gələcək inkişafı ilə bağlı ciddi addımlar atıldı ki, "Əsrin müqaviləsi"nin imzalanması bu addımlar sırasında xüsusi yer tutur.

28 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın uğurları ulu öndər Heydər Əliyevin **"Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz"** fikirlərinin təsdiqi olmaqla yanaşı, eyni zamanda, bu gerçəkliyi də şərtləndirir ki, ölkəmiz regional əməkdaşlıqdan beynəlxalq əməkdaşlığa doğru addımlamağı əsas hədəf kimi qarşıya qoyaraq bu istiqamətdə əhəmiyyətli layihələrə imza atır. "Əsrin müqaviləsi"ndən bu günədək 36 sazişin imzalanması bu faktı təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın sabit ölkə kimi tanınması müstəqilliyimizin ilk illərinin xaosundan, anarxiyasından narahatlıq keçirib ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin tərəddüdlərinə son qoydu. "Əsrin müqaviləsi"nin əsas tərkib hissəsi olan BTC və BTƏ neft-qaz kəmərlərinin ardıcılları davamlıdır. Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas tərkib hissələrindən olan TANAP-ın istifadəyə verilməsi, yaxın zamanlarda TAP-ın işə salınmasının nəzərdə tutulması da deyilənlərin təsdiqidir. 2020-ci ilədək TAP layihəsinin tamamlanacağı gözlənilir. Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılacaq.

Dövlətimizin başçısı İlham Əliyev ötən il Cənub Qaz Dəhlizinin rəsmi açılışı mərasimində bildirmişdir ki, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman bu inam ifadə edilmişdir ki, bu layihə uğurla, vaxtında icra ediləcək. Baxmayaraq ki, texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihə idi. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərdi ki, Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə çatıb.

Göründüyü kimi, Xəzər hövzəsinin zəngin enerji potensialına malik ölkəsi kimi tanınan və bölgənin lider dövləti statusunu qoruyan Azərbaycan dünya dövlətləri üçün strateji tərəfdaş kimi qazandığı etimadı yeni layihələrin reallaşmasında göstərdiyi qətiyyəti ilə doğruldur. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, "Əsrin müqaviləsi"nin 23 illiyi ərəfəsində, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması neft strategiyasının yeni mərhələsinin əsasını qoydu. Bu müqavilə müasir Azərbaycan tarixində yeni eranın başlanması, ölkənin siyasi və iqtisadi təhlükəsizliyinə əlavə təminat, yeni investisiya qoyuluşu, ümumi daxili məhsulun artımı, yeni iş yerlərinin yaradılması və sosial rifahın yaxşılaşdırılması kimi dəyərləndirildi.

Tarixən neft ölkəsi kimi tanınan Azərbaycan bu gün, eyni zamanda, qaz ixracatçısına çevrilib. Avropa Birliyinə daxil olan ölkələrin təbii qazla təminatı üçün nəzərdə tutulan neft-qaz boru kəmərlərinin siyasi, iqtisadi əhəmiyyəti, perspektivi ətrafında aparılan müzakirələrdə Azərbaycan amilinə xüsusi önəm verilir. Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolu yüksək dəyərləndirilərək, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcudluğu xüsusi qeyd edilir. Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Tərəfdaşlığın prioritetləri" sənədində enerji sektorunda əməkdaşlıqla bağlı xüsusi müddəa öz əksini tapıb. Cənub Qaz Dəhlizinin rəsmi açılışı əməkdaşlığın coğrafiyasının genişləndirilməsi barədə proqnozların reallığda öz əksini tapdığını nümayiş etdirir. Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkənin - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanın iştirak etdiyini xüsusi qeyd edən dövlətimizin başçısı, eyni zamanda, bu əminliyi ifadə edir ki, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi növbəti mərhələdə layihəyə qoşulacaqlar. "Cənub Qaz Dəhlizinin qolları olmalıdır" hədəfinə uyğun olaraq ixrac imkanlarının genişləndirilməsinin vacibliyi diqqətə çatdırılır.

25 illik yolu təhlil etdikdə görürük ki, bəziləri üçün əfsanə kimi görünən layihələr heç bir problemsiz, maneəsiz həyata keçirilib. 2006-cı ildə BTC neft, 2007-ci ildə BTƏ qaz kəməri istifadəyə verildi. Bu gün ölkəmizi və bölgəmizi bu layihələrsiz təsəvvür etmək mümkün deyil. Bu layihələr ölkəmizi gücləndirir, xalqımıza xeyir gətirir. Azərbaycan enerji sektorunda liderlik keyfiyyətlərini çox açıq şəkildə ortaya qoyur. **"Əgər biz təşəbbüs göstərib 2012-ci ildə Türkiyə ilə birlikdə TANAP layihəsinə imza atmasaydıq, bu gün Cənub Qaz Dəhlizi haqqında kimsə danışa bilərdimi? Bu gün Avropanın enerji təhlükəsizliyini kimsə bizsiz təmin edə bilərdimi? Bunları biz edirik. Nəyə görə? Çünki bu bizim xalqımıza lazımdır. Bu bizim dövlətimizi, ölkəmizi gücləndirir və bizim maraqlarımıza xidmət edir"** söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, biz nadir və nümunəvi beynəlxalq əməkdaşlıq formatını yarada bildik.

Ötən il Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyanın imzalanması da Azərbaycanın əməkdaşlıq əlaqələrinin inkişafına verdiyi töhfələrə bir daha işıq saldı. Məhz ikitərəfli əlaqələrin, həmçinin üçtərəfli formatda yaradılan regional əməkdaşlıqların inkişafı fonunda atılan bu mühüm addım sahilyanı dövlətlərin iqtisadi və siyasi həyatında mühüm rola malikdir. Qarşılıqlı anlaşmalar qarşıdakı illər üçün perspektivlərin müəyyənləşdirilməsinə yol açır. Konvensiyanın siyasi və iqtisadi əhəmiyyətindən bəhs edərkən təbii ki, ilk növbədə, bu mühüm hadisədə Azərbaycanın regional əməkdaşlığa verdiyi töhfələr stimulverici amil rolunu oynadığı xüsusi qeyd edilir. Cənab İlham Əliyevin hər zaman çıxışlarında yer alan bu fikrini xüsusi qeyd etməliyik ki, Azərbaycanın xarici siyasətində region dövlətləri ilə əməkdaşlıq əsas yer tutur. Xəzərin hüquqi statusu ilə bağlı imzalanan Konvensiya, ilk növbədə Xəzər regionunda böyük həcmdə enerji ehtiyatlarının sərbəst istismarına və istifadəsinə, həmin ehtiyatların dünya bazarına daşınmasına, regionun enerji təhlükəsizliyinin, eyni zamanda burada dövlətlərin iqtisadi, siyasi maraqlarının təmin edilməsinə, bütövlükdə regionda sabitliyin və təhlükəsizliyin bərqərar olunmasına öz təsirini göstərəcək.

Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə öz ümumiləşdirməni aparmışdır: **"Hesab edirəm ki, biz "Əsrin kontrakti"nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf - investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda, Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimin əyani sübutudur."**

Ulu öndər Heydər Əliyevin 1999-cu ildə imzaladığı Fərmana əsasən, karbohidrogen gəlirlərinin səmərəli idarə edilməsi, əhali arasında bərabər bölgü prinsipinin yüksək səviyyədə həyata keçirilməsi, təbəqələşmə prosesinin baş verməməsi, vəsaitlərin prioritet sahələrin inkişafına yönəldilməsi məqsədilə Dövlət Neft Fondunun yaradılması bugünkü sosial-iqtisadi layihələrin uğurlu icrasında əhəmiyyətli rol oynayır. Şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum kimi dəyərləndirilən Dövlət Neft Fondunun vəsaitləri hesabına Azərbaycanın hərtərəfli inkişafına xidmət edən layihələr icra olunur. **"Neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı"** söyləyən dövlətimizin başçısı İlham Əliyev qeyd edilən nitqində bu məqamı da xüsusi vurğulamışdır ki, **bu gün iqtisadi sahədə şaxələndirmə yolunu seçmişik. Yəni neftdən asılılığı aşağı salmağa çalışırıq: "Ancaq bilməliyik ki, bu gün və sabah ölkəmizin aparıcı sektoru neft-qaz sektorudur. Bu gün və sabah ölkəmizin uğurlu inkişafı üçün bizim qəhrəman neftçilərimizin əməyi əvəzolunmazdır. Məhz bizim neftçilərimiz bu gün Azərbaycanın qüdrətini, inkişafını təmin edirlər. Ona görə neftqaz sektorunun bundan sonra da uğurla inkişafı prioritet məsələlərdən biridir. Mən yenə də bunu ona görə deyirəm ki, biz iqtisadi inkişafla bağlı apardığımız siyasəti təbii olaraq qeyri-neft sektoru üzərində qururuq. Ancaq bilməliyik ki, əgər neft sektoru inkişaf etməsə, bizim qeyri-neft sektorumuz bu gün ölkəmizin tələbatını ödəyə bilməz."**

Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumları ölkəmizin iqtisadi inkişaf modelini yüksək dəyərləndirir, ən əsası Azərbaycan ən islahatçı ölkə kimi mövqeyini möhkəmləndirir. Təkcə Dünya Bankının ayrı-ayrı illər üzrə hesabatlarına diqqət yetirsək, görərik ki, Azərbaycanın qərarlaşdığı yerlərdə dəyişikliklər həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlarının davamlılığına, islahatların zamanın tələbinə uyğun təkmilləşdiyinə əsaslanır. Belə ki, əgər Azərbaycan 2017-ci ildə Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında 65-ci pillədə hesablaşmışdısa, 2018-ci ildə 8 pillə yüksələrək 57-ci yeri tutdu. "Doing Business 2019" hesabatında isə Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil olundu. 2018-ci illə müqayisədə ölkəmiz 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdı. Beləliklə, Azərbaycan MDB ölkələri arasında lider mövqedə dayandı. ABŞ-ın tanınmış "The Heritage Foundation" analitik mərkəzi isə "İqtisadi Azadlıq İndeksi-2019" hesabatında Azərbaycan ən böyük irəliləyişə malik ölkə kimi təqdim edildi.

Son 16 ilə yaxın dövrdə ümumi daxili məhsulun 3 dəfədən çox artması, qarşıdakı illər üçün daha iki dəfə artırılmasının nəzərdə tutulması da iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurlu nəticəsidir. Azərbaycanda bu illər ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5 faizə enib, işsizlik 5 faiz səviyyəsindədir. Bu onu göstərir ki, qara qızıl insan kapitalına çevrilib. Dünya İqtisadi Forumu hesabatında Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 32-ci yerə layiq görüb. Qurumun hesablamalarına əsasən inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan üçüncü yerdədir. Bu göstərici də ölkəmizdə neftqaz siyasətinin uğurlu icrasından xəbər verir. Dövlətimizin başçısı İlham Əliyev nitqində bildirmişdir: **"Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq - bütün bunların təməlində bizim neft sənayemiz dayanır."**

"Əsrin müqaviləsi"nin uğurlarından bəhs edərkən Azərbaycanın bu gün dünyada təhlükəsiz ölkə kimi nüfuz qazanmasını da xüsusi qeyd etməliyik. Məhz bu uğurumuz ölkə iqtisadiyyatına böyük həcmdə investisiya axınını sürətləndirdi. Bu gün ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 263 milyard dollardan artıqdır.

Dövlətimizin başçısı İlham Əliyevin qeyd olunan nitqində əksini tapan fikirlərin ümumiləşdirilmiş ifadəsi olaraq qeyd edə bilərik ki, dünyaya yeni iqtisadi və sosial inkişaf modelini təqdim edən, innovasiyalar ölkəsi kimi nüfuz qazanan Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, sorğu mərkəzlərinin hesabatlarında birinciliyi ələ alması "Əsrin müqaviləsi"nin ölkəmizə qazandırdığı uğurların təqdimatıdır. Dövlətimizin başçısı İlham Əliyev bu əminliyi də ifadə edir ki, bundan sonra da neftin satışından əldə ediləcək gəlirlər, ilk növbədə, sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# Nazirlər Kabinetinin növbəti iclası

Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasda "Azərbaycan Respublikasının 2020-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2020-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında" məsələ müzakirə olunacaq.

Novruz Məmmədov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev artıma və inkişafa əsaslanan iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun prioritetliyini təmin edən dayanıqlı icmal büdcənin və dövlət büdcəsinin hazırlanmasını qarşımıza qoyulan əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Azərbaycan Respublikasının 2020-ci il üçün dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Qanuna müvafiq olaraq ölkənin ortamüddətli büdcə və maliyyə sistemi, sosial-iqtisadi inkişaf proqnozları, qəbul edilmiş dövlət proqramlarının maliyyə təminatı əsas götürülməklə gələn il və sonrakı üç il üzrə makroiqtisadi proqnoz göstəriciləri, gözlənilən iqtisadi meyillər də nəzərə alınmaqla hazırlanıb. "Əminəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və müasir çağırışlara cavab verən uğurlu sosial-iqtisadi siyasət qarşıdakı ildə də davam etdiriləcək, nəzərdə tutulan hədəflərə nail olunması ilə ölkəmizin davamlı inkişafı təmin ediləcək", - deyə Baş Nazir vurğulayıb.



Baş Nazir bildirib ki, dünya iqtisadiyyatında geriləmələrin müşahidə olunduğu bir vaxtda ölkəmizdə 2020-ci ildə ümumi daxili məhsulun həcminin 82,7 milyard manatdan çox, real artımın 2,4 faiz, qeyri-neft sektorunda artımın isə 3,3 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Müzakirəyə təqdim olunan sənədlər iqtisadiyyatın səmərəliliyinin və dayanıqlılığının təmin edilməsinə, onun aparıcı sahələrinin möhkəmləndirilməsinə, əhalinin sosial rifahının, qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəldilib. Növbəti ildə dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi, təhsil islahatlarının davam etdirilməsi, elektrik təchizatı, içməli su, qaz və kanalizasiya sistemlərinin, yol tikintisinin maliyyələşdirilməsi əsas istiqamətlərdəndir. Eyni zamanda, layihədə kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi, əhalinin əsas ərzaq məhsulları ilə təmin olunması, aqrar sektora dövlət qayğısının artırılması və investisiya layihələrinin prioritetləşmə prinsiplərinə uyğun maliyyələşdirilməsi nəzərdə tutulur. 2020-ci ilin dövlət büdcəsinin layihəsində gəlirlərin ümumi daxili məhsulun 29,1 faizini, xərclərin isə 30,9 faizini təşkil edəcəyi, büdcə kəsirinin ümumi daxili məhsulun 1,4 faizi səviyyəsində olacağı proqnozlaşdırılır. Eyni zamanda, gələn il üzrə icmal büdcənin gəlirlərinin 27,6 milyard manat, xərclərinin 28,2 milyard manat həddində olacağı gözlənilir.

Sonra Maliyyə naziri Samir Şərifovun və İqtisadiyyat naziri Şahin Mustafayevin məruzələri dinlənilib.

İclasda gündəlikdəki məsələ ilə bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

## Dekabrın 5-də Vyanada OPEC Nazirlər Şurasının 177-ci iclası keçiriləcək

Dekabrın 5-də Avstriyanın paytaxtı Vyanada OPEC Nazirlər Şurasının 177-ci iclası keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə OPEC məlumat yayıb.

Qeyd edək ki, dekabrın 4-də isə Vyanada OPEC və qeyri-OPEC ölkələrinin nazirlərinin ("OPEC plus") Birgə Monitorinq Komitəsinin (JMMC) 17-ci iclası təşkil olunacaq.

Xatırladaq ki, ötən il dekabrın 7-də "OPEC plus" üzrə neft hasilatının gündəlik 1,2 milyon barrel azaldılması ilə bağlı imzalanmış "Əməkdaşlıq Bəyannaməsi"nin müddəti bu il iyulun 1-dən 2020-ci ilin ilk rübünün sonunadək uzadılıb.

## Neft Fondu 3 illik maliyyə fəaliyyətinin auditini keçirəcək şirkəti açıqlayıb



Dövlət Neft Fondu (ARDNF) 2019, 2020, 2021-ci illər üzrə maliyyə fəaliyyətinin auditini keçirmək məqsədilə Azərbaycan Respublikasının dövlət satınalmaları haqqında qanunvericiliyinə uyğun olaraq xidmət təkliflərinin cəlb olunması prosedurunu keçirib.

Fonddan AZƏRTAC-a bildirilib ki, xidmət təklifləri sorğusuna əsasən, Azərbaycan Respublikasında fəaliyyət göstərən nüfuzlu beynəlxalq auditor təşkilatları tərəfindən təqdim olunmuş təkliflərin qiymətləndirilməsi nəticəsində, ən münasib təklif vermiş "PraysvoterhausKupers Audit Azərbaycan" şirkəti müsabiqənin qalibi müəyyən edilib və Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ARDNF-in 2019, 2020, 2021-ci illər üzrə maliyyə fəaliyyətinin auditini keçirmək üçün auditor təyin olunub.

## Neftin qiyməti bahalaşır

Dünya birjalarında neftin qiyməti bahalaşıb.

AZƏRTAC xəbər verir ki, Londonun ICE ("Inter-Continental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,82 dollar artaraq 65,10 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,69 dollar bahalaşaraq 58,78 dollar təşkil edib.

## Yeni qurğular xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək

Birləşmiş Millətlər Təşkilatının (BMT) dəstəyi ilə 6 kompressor, 6 seperator və 3 soyuducu qurğu quraşdırılıb. Bu, ekoloji layihədir. BMT-nin İnkişaf Proqramı ilə SOCAR arasındakı müqavilədə 3 komponent iştirak edir. Bu komponentlərdən birincisi enerji səmərəliliyidir ki, biz bunu "Azərkimya" İstehsalat Birliyində quraşdırmışıq. İkinci komponent enerji səmərəliliyi olan nəqliyyat vasitələrindən istifadədir. Bununla əlaqədar BMT tərəfindən bizə hibrid maşınlar, simulyator qurğusu verilib. Müqavilənin son mərhələsində isə havaya buraxılan alçaqtəzyiqli qazları toplayıb əhalinin istifadəsinə vermək öz əksini tapır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə Siyəzəndəki neft yataqlarında səmt qazını ayırmaq üçün quraşdırılan kompressorların və ayırma qurğularının işə salınması mərasimində bildirib.

Rəfiqə Hüseynzadə jurnalistlərə müsahibəsində deyib ki, qurğular BMT tərəfindən quraşdırılıb, 32 kilometr məsafədə borunun çəkilməsi isə SOCAR tərəfindən həyata keçirilib. "Ümumilikdə 3 stansiya qurulub və ay ərzində 583 min kubmetr qaz yığılacaq. Bu kompressorlar işə salındığı gündən 2-3 kəndə qazın verilməsinə də başlanılacaq. Yeni kompressorlar və ayırma qurğuları xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək. 600-dən çox ailənin 1250 nəfər üzvü bu



proqramdan yararlanacaq" - deyə, Rəfiqə Hüseynzadə söyləyib.

*Hikmət Babaoğlu:*

## Azərbaycanın qüdrətinin artması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin xalq tərəfindən dəstəklənməsinin nəticəsidir



"Azərbaycanın dinamik inkişafı və gündən-günə qüdrətinin artması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin və onun xalq tərəfindən dəstəklənməsinin nəticəsidir". Bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

H.Babaoğlu bildirib ki, bu inkişaf əvvəlcədən müəyyənləşdirilmiş strategiya və xüsusi proqramlar vasitəsilə dövlət siyasəti kimi gerçəkləşdirilir. Heç şübhəsiz ki, bu zaman önə çıxan ən prioritet istiqamətlər milli maraqlarımızın qorunması və əhalinin rifah halının yüksəldilməsidir. Qeyd etmək lazımdır ki, yaşadığımız mürəkkəb geostrateji regionda milli maraqlara söykənən müstəqil siyasət həyata keçirmək heç də asan məsələ deyil. Çünki müstəqil siyasət həyata keçirmək və dövlətçilik maraqlarını daim öndə tutmaq, ilk növbədə, güclü iqtisadiyyatla əlaqəli olur. Azərbaycan məhz hər şeydən əvvəl iqtisadi müstəqilliyini qura bilib və hazırda sənayeləşmə dərəcəsi xeyli yüksək olan şaxələndirilmiş rəqabətqabiliyyətli iqtisadiyyata malikdir. Bəzən ölkəmizə qarşı müxtəlif təzyiq kampaniyalarının təşkil olunması da elə bu amillərlə bağlıdır. Çünki milli maraqlarımızdan əsla güzəştlər vermirik və bu, bəzi rəqiblərimizi xeyli narahat edir.

"Hazırda Azərbaycan həyata keçirdiyi müxtəlif təyinatlı regional və qlobal miqyaslı layihələrlə beynəlxalq münasibətlərin mühüm aktorlarından birinə çevrilib. Enerji sektorunda əldə edilən nailiyyətlər və həyata keçirilən meqalayihələr Avropanın enerji xəritəsini dəyişən xüsusi alternativ layihələr kimi, bu sahədə təhlükəsizliyi təmin edən vasitə olaraq nəzərdən keçirilir. Şübhəsiz, söhbət təkcə Avropanın enerji təhlükəsizliyindən deyil, həm də Azərbaycanın təhlükəsizliyindən gedir ki, bu da qarşılıqlı maraqların uzlaşdırılmasının optimal düsturu kimi ortaya çıxır. Əlbəttə, bütün bunlar, nəticə etibarilə, müharibə vəziyyətində olan Azərbaycanın hərbi-siyasi qüdrətini artırmaqla yanaşı, sosial problemlərin həlli üçün də yaxşı şərtlər formalaşdırır. Ölkəmizdə həyata keçirilən kompleks sosial islahatların maliyyə mənbəyi də, onun uğurlu olmasının səbəbi də karbohidrogen ehtiyatlarımızdan və digər iqtisadi resurslarımızdan səmərəli istifadənin təşkili ilə bağlıdır ki, bunu da Prezident İlham Əliyevin milli maraqlarımıza söykənən strateji siyasəti ilə əlaqələndirməliyik"-deyə, deputat qeyd edib.

# Siyəzəndə SOCAR-ın növbəti ekoloji layihəsi uğurla həyata keçirildi

## "Zağlı-Zeyvə" yatağı ərazisində səmt qazının yığılması məqsədi ilə yeni kompressor stansiyasının açılışı olub

### *Yeni layihənin həyata keçirilməsi nəticəsində 1250 abonent qazla təmin olunacaq*



**Sentyabrın 23-də Siyəzəndə SOCAR-ın əməliyyatçı olduğu "Zağlı-Zeyvə" yatağı ərazisində səmt qazının yığılması məqsədi ilə quraşdırılmış kompressor stansiyasının açılış mərasimi keçirildi.**





Kompressor stansiyası SOCAR və BMT İnkişaf Proqramının (İP) Azərbaycan Nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Azərbaycanın yanacaq istehlakı sektorunda karbon emissiyalarının azaldılmasını təmin edən Milli Fəaliyyət Planları" (NAMA) layihəsi çərçivəsində inşa edilib.

Açılış mərasimində SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, BMT İnkişaf Proqramının Azərbaycan ofisinin rəhbəri Alessandro Frakassetti və SOCAR-ın ekologiya üzrə vitse-prezidenti, layihənin rəhbəri Rəfiqə Hüseynzadə iştirak edirdilər.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BMT İP-nin Azərbaycan ofisinin rəhbəri Alessandro Frakassetti birgə simvolik start düyməsini basaraq qurğunu işə saldılar.









Spesifik vəzifəsi SOCAR-ın İqlim Dəyişikliyinin Təsirlərinin Azaldılması Strategiyasını dəstəkləməkdən ibarət olan NAMA layihəsinin 3-cü komponenti çərçivəsində SOCAR-ın "Siyəzənneft" NQÇİ-nin "Zağlı-Zeyvə" yatağı pilot ərazi olaraq seçilib və burada səmt qazının yığılması məqsədilə birgə işlər görülüb. Ərazidəki 3 qaz yığım məntəqəsində yeni kompressor və separator avadanlıqları, soyuducu sistemlər və onlayn nəzarət sistemi quraşdırılıb, ümumi uzunluğu 32 km olan əsas qaz boru xətti çəkilib. 2 il ərzində davam edən layihənin icrası nəticəsində ildə 6,8 milyon kubmetr səmt qazının yığılması planlaşdırılır. Layihənin başlıca özelliyi yığılacaq səmt qazının emal olunduqdan sonra əhalinin istehlakına yönəldilməsidir. Beləliklə, 15 ətraf kənd üzrə 1250 abonentin təbii qazla təchizatı təmin olunacaq.

"Azərbaycanın yanacaq istehlakı sektorunda karbon emissiyalarının azaldılmasını təmin edən Milli Fəaliyyət Planları" birgə layihəsi SOCAR və BMT İP tərəfindən 2015-ci ildən həyata keçirilir. Layihə ölkədə enerjiyə qənaət edən və karbon emissiyası aşağı olan texnologiyaları dəstəkləyir. 2013-cü ildən başlayaraq, SOCAR hər il birgə müəssisələrində və digər əməliyyatçı şirkətlərdə atmosferə atılan çirkləndirici qazların ümumi miqdarının hesablanmasını həyata keçirir.

SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə jurnalistlərə açıqlamasında bildirdi ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) dəstəyi ilə 6 kompressor, 6 seperator və 3 soyuducu qurğu quraşdırılıb: "Bu, ekoloji layihədir. BMT-nin İnkişaf Proqramı ilə SOCAR arasındakı müqavilədə 3 komponent iştirak edir. Bu komponentlərdən birincisi enerji səmərəliliyidir ki, biz bunu "Azərikimya" İstehsalat Birliyində quraşdırmışıq. İkinci komponent enerji səmərəliliyi olan nəqliyyat vasitələrindən istifadədir. Bununla əlaqədar BMT tərəfindən bizə hibrid maşınlar, simulyator qurğusu verilib. Müqavilənin son mərhələsində isə havaya buraxılan alçaqtəzyiqli qazları toplayıb əhalinin istifadəsinə vermək öz əksini tapır."

R.Hüseynzadə deyib ki, qurğular BMT tərəfindən quraşdırılıb, 32 kilometr məsafədə borunun çəkilməsi isə SOCAR tərəfindən həyata keçirilib: "Ümumilikdə 3 stansiya qurulub və ay ərzində 583 min kubmetr qaz yığılacaq. Bu kompressorlar işə salındığı gündən 2-3 kəndə qazın verilməsinə də başlanılacaq. Yeni kompressorlar və ayırma qurğuları xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək. 600-dən çox ailənin 1250 nəfər üzvü bu proqramdan yararlanacaq."

BMT İP-nin Azərbaycan ofisinin rəhbəri Alessandro Frakassetti qeyd etdi ki, istixana qaz emissiyaları bu gün dünyanın bir çox ölkələrində, o cümlədən iqtisadiyyatın enerji ehtiyatlarına söykəndiyi Azərbaycan kimi ölkədə ciddi təhlükədir. "Bu gün quraşdırılan müasir avadanlıqlar istixana qaz emissiyalarını kifayət qədər azaltmaq, eyni zamanda, Azərbaycanın əyalətlərində həssas icmaları təmiz yanacaqla təchiz etmək potensialına malikdir. Biz inanırıq ki, maksimum təsiri təmin etmək üçün belə layihələrə dəstək göstərilməli və onların tətbiq dairəsi genişləndirilməlidir."

**Orxan Vahidoğlu,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

## İsmayıllıda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov İsmayıllı şəhərinin mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül dəstələri qoyub.

## Qarabağ müharibəsi veteranları ilə görüş





Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində Qarabağ müharibəsi veteranlarının qayğıları ilə maraqlanıb və xatirə şəkli çəkdirib.

# Ərazi ilk təşkilat sədrlərinin müşavirəsi keçirilib





**Sentyabrın 21-də İsmayıllı şəhərində Yeni Azərbaycan Partiyasının İsmayıllı, Ağsu, Qəbələ, Qobustan, Kürdəmir və Şamaxı ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, müşavirədən əvvəl Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov məktəblilərin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olub.

Zona müşavirəsində YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, deputat Eldar İbrahimov, Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, deputat Novruzəli Aslanov iştirak ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində ölkəmizin uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını bildirib. O, bu ilin əvvəlindən dövlətimizin başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirildiyini və bunun nəticəsində ölkəmizdə əməkhaqlarının, təqaüdlərin və sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırıb.

YAP sədrinin müavini-icra katibi Əli Əhmədov partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

# Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır

### Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov İsmayıllı şəhərində gənclərlə görüşüb





**Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov sentyabrın 21-də İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində gənclərlə görüş keçirib.**

Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, MM-in komitə sədri Eldar İbrahimov, MM-in deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov, İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə İsmayıllı şəhərinin mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova tədbirdə giriş sözü ilə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində İsmayıllı rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. İsmayıllı gənclər rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.

Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan bəhs edib. Əli Əhmədov deyib ki, gənclərin təhsil alması, işləməsi, istirahət etməsi, gənclərimizin qayğısız böyüməsi üçün, layiqli vətəndaş kimi yetişməsi üçün lazım olan bütün imkan və şərait yaradılıb. Yeni Azərbaycan Partiyası hökumətimizin müəyyənləşdirdiyi bu siyasətin həyata keçirilməsi üçün öz imkanları çərçivəsində bir çox layihələr həyata keçirir. Bütövlükdə hesab edirəm ki, YAP gəncləri partiyamızın gücünün, fəallığının formalaşmasında ictimai-siyasi həyatda partiyamızın yaxından iştirak etməsində əhəmiyyətli bir qüvvəyə, gücə çevriliblər.

Əli Əhmədov qeyd edib ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda partiyanın gənclərinin də rolunun artması bizi sevindirir:



“Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, partiyamızın sıralarında gənclərimizin sayı artır və bu, özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Partiyamızın 700 mindən çox üzvü var və onların 40 faizə qədəri gənclərdən ibarətdir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır, Prezident İlham Əliyevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər”.

Bu gün Azərbaycanın öz tarixinin ən gözəl dövrünü yaşadığını deyən Əli Əhmədov bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınçılıq hissi yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır.

Ölkəmizdə gənclərin inkişafı, təhsili, məşğulluğu, eləcə də idmanın inkişafı üçün hər cür şəraitin yaradıldığını qeyd edən YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, gənclərimiz xoşbəxtdirlər ki, Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar.

Gənclərlə görüşdə MM-in deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, İsmayıllı rayon İcra hakimiyyətinin başçısı Mirdamət Sadıqov, eləcə də gənclərin nümayəndələri çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, gənclərin dövlətə, dövlətçiliyimizə münasibətindən danışıb, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətin uğurlarından bəhs ediblər.

# Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilib



**Sentyabrın 23-də Naxçıvan şəhərində Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.**

Ali Məclisin Sədri Azərbaycanın görkəmli hərb xadimi, Azərbaycan ilk milli atıcı diviziyasının komandiri olmuş general Cəmşid Naxçıvanskinin adını daşıyan muzeyin yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib, muzeyin qurulmasında əməyi olanlara təşəkkürünü bildirərək deyib: Xalqımız qəhrəmanlığı və şücaəti ilə seçilən görkəmli sərkərdələri ilə tanınır. Böyük hərb sənətinə malik olan Azərbaycanda bu sənəti inkişaf və davam etdirən Naxçıvanskilər nəslinin nümayəndələri olan generalların mühüm xidmətləri vardır. Onlar şərəfli döyüş yolu keçmiş, gələcək nəsillər üçün nümunəvi vətənpərvərlik irsi qoyub getmişlər. Cəmşid Naxçıvanski də bu nəslin yetirdiyi altı generaldan biri olmuşdur.

Ali Məclisin Sədri deyib: Hər bir vətəndaşda vətənpərvərlik hissinin formalaşdırılması milli mənliyin inkişaf etdirilməsindən başlamalıdır. Özünü ölkəsinin əsl vətəndaşı hesab edən şəxs fəaliyyətini məhz xalqa və Vətənə layiqli xidmət istiqamətində qurmalıdır. Ümummilli lider Heydər Əliyev deyirdi: “Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir”. Şərəfli döyüş yolu keçmiş general Cəmşid Naxçıvanski Vətən məhəbbətini şəxsi maraqlarından üstün tutan, yüksək ali keyfiyyətlərə malik, zəngin mənəviyyatlı sərkərdə kimi qısa ömrünə keşməkeşli hərb tarixini sığdırmağı bacarmış, sıravi əsgərdən general rütbəsinədək yüksəlmişdir.

Qeyd olunub ki, həyatının məqsədini Vətənə xidmətdə görən Cəmşid Naxçıvanski bir-birinə zidd olan üç quruluşda yaşamasına baxmayaraq, şərəfli zabit adına ləkə gətirməmiş, təmsil etdiyi nəslin və xalqın ləyaqətini qorumuşdur. O, bu yolda bütün çətinliklərə sinə gərmiş, peşəkar sərkərdə bacarığı və sədaqəti göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsində iştirak etməsi, 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda azərbaycanlı əhaliyə amansız divan tutan erməni quldur dəstələrini komandanlıq etdiyi alay tərəfindən darmadağın edilməsi və qısa müddətdə orada əmin-amanlıq yaratması xalqının müstəqilliyini sevən sərkərdə kimi Cəmşid Naxçıvanskinin şöhrətini daha da artırmışdır. Azərbaycan hərb tarixində Cəmşid Naxçıvanski ilk milli atıcı diviziyasını yaratmış və ona komandanlıq etmişdir.

Ali Məclisin Sədri deyib: Sovet hakimiyyəti illərində Azərbaycan xalqının repressiya qurbanı olmuş görkəmli nümayəndələrindən biri Cəmşid Naxçıvanski əsl bəraətini ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirdiyi tarixi yaddaşa və milli soykökə qayıdış siyasəti nəticəsində almışdır. Cəmşid Naxçıvanskinin adının və xatirəsinin əbədiləşdirilməsi ilə bağlı 23 iyun 1971-ci il və 8 avqust 1981-ci il tarixlərində imzalanan qərarlar görkəmli sərkərdənin irsinə ulu öndər Heydər Əliyevin böyük ehtiramıdır. Bu tarixi qərarlarla Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəb, Naxçıvan şəhərində isə Cəmşid Naxçıvanski Muzeyi yaradılmış, bir məktəbə və küçəyə onun adı verilmişdir. 1982-ci ildən fəaliyyətə başlayan Cəmşid Naxçıvanski Muzeyi ötən müddət ərzində böyük sərkərdənin keçdiyi həyat yoluna aid tarixi sənədlərin, eksponatların qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması və təbliğində mühüm rol oynamışdır.

“Bu gün açılışına toplaşdığımız bu tarixi bina 3 əsrin tarixi yaddaşını qorumaqla, xalqın azadlıq və müstəqillik epopeyasına 1918-ci ildən 1920-ci ilədək fəaliyyət göstərmiş Araz-Türk Respublikası hökumətinin fəaliyyətini də yazmışdır. Bu muzeydə Cəmşid Naxçıvanski ilə bərabər xalqımızın 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərindəki milli azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsində qəhrəmanlıq göstərən tarixi şəxsiyyətlərinin fəaliyyəti də əks olunur”, - deyən Ali Məclisin Sədri bildirib ki, Naxçıvan tarixinin, tanınmış hərb xadimlərinin irsinin qorunub saxlandığı Cəmşid Naxçıvanski Muzeyi xalqın tarixi yaddaş salnaməsi, eyni zamanda vətənpərvərlik təliminin, dövlətçilik ənənələrinin daşıyıcısı olan mədəniyyət mərkəzidir. Bu muzey həm də gələcək nəsillərin tərbiyəsi və vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyəti ilə seçilir. Buna görə də Cəmşid Naxçıvanski Muzeyi öz fəaliyyətini xalqımız qarşısında mühüm xidmətləri olan tanınmış şəxsiyyətlərin keçdiyi həyat yolu və Araz-Türk Respublikasının timsalında müstəqillik və dövlət quruculuğu tariximizi gənc nəslə təbliğ etməli, onların Vətənə məhəbbət ruhunda tərbiyəsinə öz töhfəsini verməlidir. Xalqımızın şanlı qəhrəmanlıq tarixi, ölkəmizin müstəqilliyi və suverenliyi yolunda misilsiz xidmət göstərən qəhrəmanları həmişə yaşayacaqlar!



Cəmşid Naxçıvanski Muzeyinin direktoru Abasət Nuriyev çıxış edərək deyib ki, muxtar respublikamızda geniş vüsət almış abadlıq-quruculuq işləri mədəniyyət sahəsini də əhatə edib. Qədim diyarımızda tarixi abidələr bərpa edilir, yeni muzeylər yaradılır, muzey fondları zənginləşdirilir. XX əsrin əvvəllərində Araz-Türk Respublikasının Naxçıvan şəhərindəki qərargahı, hazırda hərb tariximizdə xüsusi yeri olan Azərbaycanın görkəmli sərkərdəsi Cəmşid Naxçıvanski Muzeyinin binası XIX əsr tarix-mədəniyyət abidəsidir. Ötən əsrin 70-ci illərində əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan siyasət - tarixi-mədəni irsimizin qorunması, tarixi şəxsiyyətlərimizin adının əbədiləşdirilməsi, onların cəmiyyətə tanıdılması siyasəti bu gün uğurla davam etdirilir. Cəmşid Naxçıvanski Muzeyi binasının yenidən qurulması da Naxçıvanın tarixinə, mədəniyyətinə, görkəmli tarixi şəxsiyyətlərinə diqqət və qayğının ifadəsidir. Abasət Nuriyev göstərilən diqqətə görə muzeyin kollektivi və naxçıvanskilərin tədqiqatçıları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Sonra muzeyə baxış olub. Qeyd olunub ki, muzey 6 ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. Hazırda muzeyin fondunda 5400-ə yaxın eksponat vardır. Həmin eksponatlardan 500-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir. Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi, onun uşaqlıq və gənclik, həmçinin hərbi təhsil illəri, birinci Dünya müharibəsində iştirakı, Azərbaycan Xalq Cümhuriyyətinin təşkil etdiyi Milli Ordu quruculuğunda, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonrakı dövrdə və Moskvada Frunze adına Hərbi Akademiyada hərbi-pedaqoji fəaliyyəti, təltifləri və repressiyaya məruz qalması, eləcə də generalın ailəsi və yaxın qohumları ilə bağlı sənədlər, kitablar, fotoşəkillər və digər eksponatlar müxtəlif bölmələrdə mühafizə edilir. Araz-Türk Respublikasının fəaliyyətindən bəhs edən bölmədə isə tədqiqat materialları və tarixi sənədlər nümayiş etdirilir.

Ali Məclisin Sədri Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətinin, eləcə də Araz-Türk Respublikasının öyrənilməsi və tədqiq olunması, gənclərin, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının muzeyə ekskursiyalarının təşkili barədə tapşırıqlar verib.

### Turizm Departamenti üçün müasir iş şəraiti yaradılıb

Naxçıvan Muxtar Respublikası Turizm Departamenti tarixi binada fəaliyyət göstərəcəkdir. Sentyabrın 23-də bu münasibətlə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Turizm Departamenti üçün müasir iş şəraitinin yaradıldığını bildirib, bu münasibətlə kollektivi təbrik edərək deyib: Bu gün muxtar respublikanın turizm potensialının artırılması istiqamətində lazımi işlər görülür. Tarixi abidələrin bərpası və milli dəyərlərimizin qorunub yaşadılması turizmin inkişafına mühüm töhfə verir. Muxtar respublikanın turizm potensialının tanıdılması və təbliği məqsədilə yaradılmış Turizm Departamentinin nəzdində Turizm-İnformasiya Mərkəzi, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi və Milli Dəyərlər Muzeyi fəaliyyət göstərir. Turizm Departamenti və Milli Dəyərlər Muzeyi Naxçıvan şəhərinin qədim tarixi binasında, Turizm-İnformasiya Mərkəzi Zaviyyə-Mədrəsə binasında, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi isə bərpa olunmuş qədim Buzxanada yerləşir. Bütün bunlar muxtar respublikada turizm potensialının düzgün təbliğinə hesablanıb. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, muxtar respublikaya turist təşviqi daha da artırılmalıdır.

Ali Məclisin Sədri deyib: 2019-cu ilin yanvar-avqust ayları ərzində dünyanın müxtəlif ölkələrindən muxtar respublikaya 250 minə yaxın turist gəlmişdir. Bunun bir hissəsi Turizm-İnformasiya Mərkəzinin apardığı işlər nəticəsində mümkün olmuşdur. Ona görə də muxtar respublikanın turizm potensialı, zəngin tarixi-mədəni irsi, mətbəxi və müasir inkişafı ilə bağlı informasiyalar internet üzərindən daha geniş yayılmalı və təbliğat işləri aparılmalıdır. Binada yaradılan şərait imkan verəcəkdir ki, bu vəzifələr uğurla yerinə yetirilsin. Çünki muxtar respublikaya turistlərin cəlbi digər sahələrin də inkişafına təsir edir. Eyni zamanda, muxtar respublika barədə həqiqətlər, tariximiz, mədəniyyətimiz, milli dəyərlərimiz dünya ölkələrinə tanıdılır.

Ali Məclisin Sədri bir daha kollektivi təbrik edib və açılışı bildirən lenti kəsib. Bildirilib ki, binada Turizm Departamenti və “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi üçün iş otaqları, eləcə də 50 yerlik iclas zalı yerləşir.

Ali Məclisin Sədri iclas zalında turizm şirkətləri üçün təlim və seminarların, eləcə də ali təhsil müəssisələrinin Turizm və otelçilik ixtisası tələbələrinin iştirakı ilə görüşlərin keçirilməsi, muxtar respublikanın turizm potensialı barədə internet saytlarında və sosial şəbəkələrdə təbliğat işlərinin aparılması barədə tapşırıqlar verib.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov yaradılan şəraitə görə minnətdarlıq edib.

Həyətdə Möminə Xatun və Nuh peyğəmbərin məzarüstü türbələrini, Naxçıvan Muxtar Respublikasının turist marşrutları xəritəsini əks etdirən panolar quraşdırılıb. Turist marşrutları xəritəsində 3 müxtəlif istiqamət üzrə 24 daşınmaz tarix-mədəniyyət abidəsi, 4 su dəyirmanı, 2 müalicə mərkəzi, 2 istirahət mərkəzi, 3 təbiət abidəsi, otel, çimərlik və muzey öz əksini tapıb.

### Naxçıvan şəhərində Milli Dəyərlər Muzeyi fəaliyyətə başlayıb

Ümummilli liderimiz Heydər Əliyev deyib: “Biz milli dəyərlərimizi qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqdan keçmiş bu dəyərlər ruhunda tərbiyələndirməliyik”.

Ulu Öndərimiz ölkəmizə rəhbərliyi dövründə milli dəyərləri milli dövlət quruculuğunun aparıcı elementinə çevirib. Bu gün müstəqil



Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında milli dəyərlərimiz qorunub yaşadılır. Sentyabrın 23-də Naxçıvan şəhərində yeni fəaliyyətə başlayan Milli Dəyərlər Muzeyi də bu sahədə görülən işlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muzeydə yaradılan şəraitlə maraqlanıb.

Məlumat verilib ki, muzey otaq və 3 ekspozisiya zalından ibarətdir. Hazırda muzeyin fondunda 236 eksponat vardır. Ekspozisiyada Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Dövlət himninin mətni, milli geyimlərimiz və qədim mətbəx əşyalarımız, xalçalar və milli musiqi alətlərimiz nümayiş olunur. Milli sənətkarlıq nümunələrindən ibarət eksponatlar, muxtar respublikanın tarixi, mədəniyyəti, memarlıq abidələri, adət-ənənələri ilə bağlı çap olunmuş kitab və ensiklopediyalar, turizm potensialının təbliğinə dair bukletlər müxtəlif guşələrdə sərgilənir.

Ali Məclisin Sədri Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə və Mədəniyyət Nazirliyinə muzey fondunun zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar verib.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tariximizin, görkəmli şəxsiyyətlərimizin və milli dəyərlərimizin öyrənilməsi sahəsində görülən işlərə görə muxtar respublika ziyalıları adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

*Namiq Əhmədov:*

## Xalqımız reallıqları görür və yüksək qiymətləndirir

**Azərbaycanın inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ölkədə genişməzmunlu islahatların həyata keçirilməsi ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev son 16 ildə ölkəmizdə islahatlar kursunu daha da dərinləşdirib.**



**Bu fikirləri İkisahil.TV-yə açıqlamasında YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bildirib.** Namiq Əhmədov qeyd edib ki, Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Möhtərəm Prezidentimiz bildirir ki, bizim proqramlarımız reallıq üzərində qurulub. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var - regionların inkişafı, işsizliyin aradan qaldırılması, sənayeləşmə, kənd təsərrüfatının inkişafı və s. Əməkhaqqı, pensiyalar artır. Aztəminatlı ailələr ünvanlı sosial yardım proqramından bəhrələnirlər.

Namiq Əhmədov vurğulayıb ki, bu il ərzində Prezident İlham Əliyevin imzaladığı Fərman və sərəncamlara uyğun olaraq həyata keçirilən tədbirlər sosial, iqtisadi və digər sahələri əhatə edən islahatların davamlı xarakter daşıdığını göstərir. Yəni bütün bu tədbirlər uzunmüddətli islahatlar paketinin tərkib hissəsidir. Təbii ki, bu reallıqlar anti-Azərbaycan dairələri narahat edir və həmin qüvvələr ölkəmizə qarşı xaricdəki “mühacir müxalifəti”ndən və “beşinci kolon”dan istifadə edirlər. Onların məqsədi Azərbaycanın inkişafına, vətəndaşların sosial rifahının daha da yaxşılaşmasına xidmət edən, qarşıya qoyulan hədəflərə çatmağa imkan verən tədbirlərin, islahatların və müsbət reallıqların üzərinə kölgə salmaqdır. Onlar, həmçinin müxtəlif ideoloji təxribatlar vasitəsilə ölkədə ictimai-siyasi sabitliyin pozulmasına çalışırlar. Amma bütün bu cəhdlər faydasız və nəticəsizdir. Azərbaycanda xalq-iqtidar birliyi mövcuddur, ölkədə sabitlik və inkişaf hökm sürür. Azərbaycan xalqı reallıqları görür və yüksək qiymətləndirir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçərək regionun lider dövlətinə çevrilib, paytaxt Bakının və regionların siması əhəmiyyətli dərəcədə dəyişilib, əhalinin sosial müdafiəsi daha da gücləndirilib və bütün bunlar Azərbaycanın qüdrətinin artmasını təmin edib. Göründüyü kimi, Azərbaycanın hər bir uğuruna töhfələrini verməyə çalışan Yeni Azərbaycan Partiyasının atdığı biri-birindən əhəmiyyətli addımlar onu xalqın partiyasına çevirmiş, hər bir seçki prosesini uğurla başa vurmasını şərtləndirmişdir. Yeni Azərbaycan Partiyası fəaliyyətə başladığı gündən söz və əməl birliyini nümayiş etdirmiş, xalqın, dövlətin gələcəyi naminə çalışmışdır. Təbii ki, belə bir partiyanın cəmiyyətdə rolu böyük olacaq. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Partiyanın gələcəyinə inam onun seçki qələbələrindən daha aydın görünür.

N.Əhmədov daha sonra bildirib: “Bu gün YAP Xəzər rayon təşkilatında minlərlə Heydər Əliyev ideyalarına sadiq, əqidəli insanlar birləşib. Hazırda YAP Xəzər rayon təşkilatının 90 ilk ərazi partiya təşkilatı mövcuddur. Təşkilatımızın üzvləri rayonun ictimai-siyasi həyatında, abadlıq və quruculuq işlərində yaxından iştirak edirlər. Ümumiyyətlə, rayon təşkilatı olaraq hər ilin əvvəlində tədbirlər planı təsdiq edirik və bu plana uyğun olaraq fəaliyyətimizi qururuq. Hər il bütün əlamətdar günlər, tarixi hadisələrlə və s. bağlı tədbirlər keçiririk. Bütövlükdə, YAP Xəzər rayon təşkilatı öz fəaliyyətini partiyanın proqram və nizamnaməsinə uyğun şəkildə qurub. Biz öhdəmizə düşən vəzifələri layiqincə yerinə yetirməklə partiya rəhbərliyinin etimadını doğrultmağa çalışırıq.”

“Bu gün yeganə problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Xalqımız bu problemin ədalətli həll olunacağına əmindir. Həm diplomatiya sahəsindəki uğurlarımız, həm də iqtisadi imkanlarımızın genişlənməsi fonunda ordu quruculuğu istiqamətində atılan addımlar və onların uğurlu nəticələri bu əminliyə əsas verir”- deyə Namiq Əhmədov bildirib.

✍ **Şəmsiyyə Əliqızı,**
***“İki sahil”***

*Kamilə Əliyeva:*

## Prezidentin sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın rifahını təmin edir

Prezident İlham Əliyevin məqsədyönlü, uzaqgörən və milli maraqlara əsaslanan siyasəti nəticəsində Azərbaycan regionda güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik bir dövlətə çevrilib. Ölkə rəhbərinin müdrik siyasəti və qətiyyətinin nəticəsi olaraq Azərbaycan ildən-ilə yeni qələbələrə doğru inamla irəliləyir. Zəfərə gedən yolda heç bir qüvvə Azərbaycan xalqına və onun liderinə mane olmaq iqtidarında deyil.

**Bu sözləri Milli Məclisin deputatı Kamilə Əliyeva söyləyib.**

Deputat dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanda köklü islahatların həyata keçirildiyini, dövlət proqramlarının qəbul edildiyini, mühüm layihələrin reallaşdırıldığını vurğulayıb. Bildirib ki, görülən işlər nəticəsində regionların sosial-iqtisadi vəziyyəti yaxşılaşdırılıb, yeni iş yerləri açılıb, ümumi daxili məhsulun həcmi artıb. Dünyada baş verən maliyyə böhranına baxmayaraq, Azərbaycan



investisiya qoyulan ölkədən investisiya yatıran ölkəyə çevrilib, neft sektorunun inkişafından qeyri-neft sektorunun inkişafına əsl keçid mərhələsi başlayıb. İnsanların maddi rifah halının yaxşılaşdırılması üçün həyata keçirilən sosial islahatlar hər bir Azərbaycan vətəndaşının ürəyincədir. Qısa zaman kəsiyində ölkədə əməkhaqları, pensiyalar iki dəfə artırılıb. Pensiyaların minimum həddi 200 manata, əməkhaqlarının minimum həddi 250 manata qaldırılıb, sosial müavinətlər, təqaüdlər artırılıb, problemli kredit məsələsi öz həllini tapıb, şəhid ailələrinə müavinətlər ödənilib. Ümumilikdə, ölkə başçısının sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin rifahını təmin edir. Xalqın dəstəyinə arxalanan Prezidentin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır.

Kamilə Əliyeva vurğulayıb ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir.

## *Sahibə Qafarova:* Ölkəmiz dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir

“Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizdə etibarlı sabitlik və təhlükəsizlik mühiti hökm sürür. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs Azərbaycanın iqtisadi qüdrətinin artmasını, beynəlxalq mövqeyinin möhkəmlənməsini təmin edib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb”. Bu fikirləri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Sahibə Qafarova deyib.

Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının ölkənin davamlı tərəqqisinə xidmət etdiyini deyən deputat əlavə edib ki, ölkəmizdə dövlət siyasətinin çox mühüm tərkib hissəsini sosial siyasət təşkil edir: “Azərbaycanda səmərəli sosial siyasət həyata keçirilir, vətəndaşlar yüksək dövlət qayğısı ilə əhatə olunublar. Bu istiqamətdə mütəmadi olaraq Fərman və sərəncamlar imzalanır, müvafiq qərarlar qəbul olunur. Prezident İlham Əliyevin sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin rifahını təmin edir”.

“Bununla yanaşı, Azərbaycan dünya siyasi arenasında çox mühüm nailiyyətlərə imza atıb, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirib, mühüm transmilli enerji və nəqliyyat layihələrinin gerçəkləşdirilməsinə nail olub. Bütövlükdə, beynəlxalq aləmdə böyük nüfuz qazanan Azərbaycan regionun aparıcı dövlətinə çevrilib”, - deyə S.Qafarova vurğulayıb.

Deputat bildirib ki, Prezident İlham Əliyev daim dövlətin mənafeyini - milli maraqları rəhbər tutur, Öz fəaliyyətində xalqın dəstəyinə arxalanır: “Prezident İlham Əliyevin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Bütün bunların məntiqi nəticəsi kimi, Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir, bu siyasətin inkişafa, firavan gələcəyə xidmət etdiyini əminliklə bildirir”.



*Aydın Hüseynov:*

## Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət Azərbaycanın möhtəşəm nailiyyətlər qazanmasını təmin edib



“Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə sosial-iqtisadi infrastruktur müasir tələblərə uyğun yenidən qurulub, iqtisadiyyat şaxələndirilib və qeyri-neft sektorunda güclü potensial formalaşdırılıb”. Bu fikri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

A.Hüseynov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət Azərbaycanın möhtəşəm nailiyyətlər qazanmasını təmin edib. Eyni zamanda, dinamik tərəqqi Azərbaycanın bölgələrini də əhatə edib, regionların sosial-iqtisadi inkişafı davamlı xarakter alıb. Respublikamızda regionların sosial-iqtisadi inkişafına dair əvvəlki iki Dövlət Proqramı kimi, 2014-2018-ci illəri əhatə edən sayca üçüncü proqramın da icrası yüksək səviyyədə təmin olunub və qəbul edilmiş dördüncü Dövlət Proqramı çərçivəsində müəyyən olunmuş işlər müvəffəqiyyətlə davam etdirilir.

“Bütün bunlar isə, şübhəsiz ki, ölkəmizdə sosial-iqtisadi inkişafın davamlı xarakter daşıdığını göstərir. Bunlara paralel olaraq əhalinin sosial təminatı sahəsində inqilabi nəticələr əldə olunub, insanların həyat şəraitinin yaxşılaşdırılması - rifah halının yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilib. Sabitliyin və təhlükəsizliyin təmin edildiyi Azərbaycanda insan kapitalının inkişafı, xalqın mədəni və milli-mənəvi irsinin qorunub saxlanması istiqamətində görülən tədbirlər də səmərəli nəticələr verib. Qazanılan nailiyyətlər Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin nəticələridir” - deyə, A.Hüseynov vurğulayıb.

*Vüqar Rəhimzadə:*

# "Əsrin müqaviləsi" Azərbaycana yeni dostlar, tərəfdaşlar qazandırdı

**Təkcə çoxminli neftçi ailəsinin deyil, bütün Azərbaycan xalqının bayramı olan "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 25 il ölkəmizin neft-qaz sənayesinin tarixində mühüm uğurlarla yadda qalıb.**

Dəfələrlə qeyd edildiyi kimi, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsas tərkib hissəsi olan "Əsrin müqaviləsi" imzalanmasaydı bu gün Azərbaycanın hansı iqtisadi çətinliklər içərisində olduğunu təsəvvür etmək çətin deyildi. "Əsrin müqaviləsi" ilk öncə Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirdi. Ölkəmizdə yaradılan ictimai-siyasi sabitlik, əlverişli investisiya mühiti Azərbaycanı riskli ölkə kimi dəyərləndirib iqtisadiyyatımıza sərmayə yatırmaqda tərəddüd edən dövlətlərin, şirkətlərin narahatlığına son qoydu. Ulu öndər Heydər Əliyevin "açıq qapı" siyasəti, bu siyasətin əsas tərkib hissəsi kimi xarici investorlara ölkə iqtisadiyyatına qoyacaqları sərmayələrin təhlükəsizliyinə təminatın verilməsi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin sayının daha da artmasına gətirib çıxardı. "Əsrin müqaviləsi" Azərbaycana yeni dostlar, tərəfdaşlar qazandırdı. Məhz bunun bariz nümunəsidir ki, həmin müqavilənin imzalanmasından sonra bu günə qədər 36 saziş imzalanıb".

**Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə dövlətimizin başçısı İlham Əliyevin bu günümüzün uğurlu inkişafının aydın mənzərəsini yaradan nitqini şərh edərkən bildirib.**

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyev mərasimdə bir daha ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurları fonunda hədəfləri açıqlayıb və bu əminliyi ifadə edib ki, bundan sonra da neftin satışından əldə ediləcək gəlirlər, ilk növbədə, sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin.

"Ulu öndər Heydər Əliyev dünya təcrübəsinə əsaslanaraq səylərin birləşdirilməsinə, təcrübə mübadiləsinə əsaslanan "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla, eyni zamanda, xalqımızın uzun illərdən bəri arzusunda olduğu öz təbii sərvətlərinin əsl sahibi olmaq istəyini gerçəkləşdirdi. Dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, məhz ümummilli lider Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başladılar" - söyləyən V.Rəhimzadə qeyd edib ki, "Əsrin müqaviləsi" Azərbaycanı dünyaya investisiya üçün əlverişli ölkə kimi təqdim etdi. Həm Azərbaycan, həm də iştirakçı dövlətlər, xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər.

V.Rəhimzadə vurğulayıb ki, bu günümüzün reallıqlarında "Əsrin müqaviləsi"nin faydaları daha aydın görünür: "Neft gəlirlərinin idarə olunmasında şəffaflığın qorunması üçün yaradılan Dövlət Neft Fondunun vəsait-



ləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçirilir. Bu layihələr sırasında "Əsrin müqaviləsi"nin aktuallaşdırdığı kadr hazırlığı məsələsini xüsusi qeyd etməliyik. Dövrün tələblərinə uyğun olaraq təkmilləşmə, yeni texnologiyaların tətbiqi kadr hazırlığını bir tələb kimi ortaya qoydu. Dövlətimizin başçısı İlham Əliyev nitqində bu məsələyə xüsusi diqqət yönəldərək bildirib: "Əsrin kontraktı"nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Ancaq onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər BP şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər, önəmli vəzifələrdə çalışırlar. Bu gün "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır, yəni, bunu biz təmin etdik. Bu, çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir".

Baş redaktor əlavə edib ki, məhz bu gün şaxələndirmə siyasətinə üstünlük verilməsi o illərdə qoyulan möhkəm təməlin, bu günümüzə hesablanmış inkişaf strategiyasının nəticəsidir: "Neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı istiqamətində davamlı addımlar atılır. Bazar iqtisadiyyatının aparıcı qüvvəsi kimi sahibkarlığın inkişafını təmin etmək məqsədilə regionların malik olduğu potensial imkanlardan səmərəli istifadə edilir, ən əsas infrastruktur yenilənir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, paytaxt və bölgələrimiz arasında fərq aradan götürülüb. Azərbaycanın hər bölgəsi, kəndi və qəsəbəsi inkişaf dövrünü yaşayır. Son 16 ilə yaxın dövrün statistikasına diqqət yetirsək görərik ki, ümumi daxili məhsulda özəl bölmənin payı 85 faiz təşkil edir. Ölkə iqtisadiyyatına 250 milyard dollar vəsait qoyulub ki, bunun da böyük qismini xarici investisiyalar təşkil edir. Eyni zamanda, qürurverici haldır ki, bu investisiyalarda daxili investisiyaların da öz payı olmaqla yanaşı, bunlar qeyri-neft sektorunda əldə edilib. Dövlətimizin başçısı İlham Əliyev nitqində bu mühüm məqamı da xüsusi qeyd edib ki, bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə, qarşıdurma, qeyri-bərabərlik, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafa sərmayə kimi qoyuldu. İqtisadi tərəqqi sosial məsələlərin həllinə geniş imkanlar açdı".

"Prezident İlham Əliyevin bu çağırışlarına uyğun olaraq iqtisadi göstəricilər yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapdı" - söyləyən V.Rəhimzadə qeyd edib ki, əməkhaqlarının, pensiyaların, müxtəlif kateqoriyalardan olan vətəndaşların aylıq maaşlarının mütəmadi olaraq artırılması, həmçinin ölkədə təhsilin inkişafı, kadr hazırlığının yüksək səviyyədə həyata keçirilməsi üçün təqaüd sisteminin təkmilləşdirilməsi, müharibədən əziyyət çəkən insanların müavinətlərinin artırılması və sair biri-birindən əhəmiyyətli addımlar "Əsrin müqaviləsi"nin iqtisadi əhəmiyyətini bir daha açıqlayır.

V.Rəhimzadə "Əsrin müqaviləsi"nin Azərbaycanın beynəlxalq nüfuzunun artmasında rolunu da xüsusi qeyd edib. Vurğulayıb ki, Azərbaycan bir daha etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi: "Məhz bunun nəticəsidir ki, 2017-ci ildə daha mühüm sazişə imza atıldı. "Yeni əsrin müqaviləsi"nin imzalanması, 2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı, TANAP-ın istifadəyə verilməsi və sair kimi mühüm hadisələr Azərbaycanın dünyanın enerji siyasətində yeri və roluna aydınlıq gətirir. Dövlətimizin başçısının bildirdiyi kimi, yeni kontraktlar imzalanır, neft-qaz sənayesinə böyük maraq var. Azərbaycan beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edib".

Baş redaktor qeyd edib ki, "Əsrin müqaviləsi"nin Azərbaycana qazandırdığı uğurların miqyası düşündüyümüzdən daha böyükdür: "Azərbaycan ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlarını yaşayır, bu strategiya hələ qarşıdakı onilliklərdə ölkəmizə daha böyük uğurlar gətirəcək. Azərbaycan təşəbbüsləri gerçəkliyə çevirməklə həm iqtisadi imkanlarını genişləndirir, həm də yeni tərəfdaşlar qazanır. Bu gün Azərbaycan xalqının dünyanın 10 xoşbəxt xalqı arasında xüsusi yer tutması təbii ki, böyük uğur olmaqla yanaşı, dövlətimizin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş amilinin dayanmasına verilən böyük qiymətdir. O xalq xoşbəxtdir ki, onun bu gününü və gələcəyini özündə ehtiva edən siyasət həyata keçirilir. Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə önəm verməklə Xəzər dənizini dünyaya açması xalqımızın xoşbəxt gələcəyini düşünməsindən irəli gəlib. Məhz bu uğurlara söykənərək dövlətimizin başçısı İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində bildirib ki, Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir".

V.Rəhimzadə ulu öndər Heydər Əliyevin şah əsəri kimi dəyərləndirilən "Əsrin müqaviləsi"nin ardıcıllarının davamlı olacağını, beynəlxalq maliyyə qurumlarının proqnozlarında da qeyd edildiyi kimi, enerji layihələrindən dövlət büdcəsinə milyardlarla dollar vəsait daxil olması nəticəsində ölkəmizdə yoxsulluq səviyyəsinin tamamilə heçə enəcəyini bildirib. Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsasında "güclü dövlət, yüksək rifah" prinsipinin əsas götürülməsini şərtləndirən amillər sırasında neft strategiyasının rolu inkaredilməzdir.

## Los-Anceles səmasında və küçələrində Qarabağ həqiqətləri



Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 22-də Los-Ancelesə səfər edərək erməni icmasının keçirdiyi mitinqdə çıxış edib. Xatırladaq ki, yarım milyonadək erməninin yaşadığı Los-Anceles vilayəti ABŞ-da ermənilərin ən çox yaşadığı yerdir.

Bunu nəzərə alaraq, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə yerli əhalini geniş şəkildə məlumatlandırmaq üçün həmin gün Los-Anceles səmasına ingilis dilində böyük hərflərlə "Karabakh is Azerbaijan! End the Occupation" (Qarabağ Azərbaycanındır! İşğala Son Qoy!) şüarını daşıyan təyyarələr qaldırılıb. Bütün günü Los-Anceles üzərində dövrə vuran şüar yerli əhali tərəfindən böyük maraqla qarşılanıb. Bu barədə Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.

Bundan əlavə, üzərində Qarabağ həqiqətlərini əks etdirən rəqəmsal plakatların olduğu xüsusi maşınlar gün ərzində Los-Ancelesin ən müxtəlif guşələrini dolaşaraq, böyük sayda şəhər sakinini Ermənistanın işğalçılıq siyasəti barədə məlumatlandırıb. Plakatlarda Azərbaycanın 20 faiz ərazisinin işğal olunduğu, 1 milyonadək soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi, işğal altında olan ərazilərimizdə Azərbaycan mədəniyyətinə qarşı soyqırımı həyata keçirildiyi, Xocalı soyqırımı və digər məsələlər barədə məlumat verilib.

Qeyd edək ki, Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev səfər ərəfəsində Los-Anceles şəhər və vilayət rəhbərliyinə Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirən bir ölkənin baş nazirinin səfərinə etiraz edən məktublar göndərib. Həmçinin N.Paşinyanın Los-Ancelesə səfəri ABŞ mətbuatında da tənqid olunub. Belə ki, ABŞ-ın ən böyük yəhudi qəzeti olan, Los-Ancelesdə nəşr edilən "Jewish Journal" qəzetində, həmçinin "NewzBlaze" qəzetində müvafiq məqalələr dərc olunub. Məqalələrdə Ermənistanın öz qonşusuna qarşı işğalçılıq siyasəti həyata keçirən kriminal bir dövlət olduğu, beynəlxalq hüququ kobud şəkildə pozmaqda davam etdiyi, Ermənistanda nasist generalların milli qəhrəman elan olunduğu, antisemitizmin geniş yayıldığı qeyd olunaraq, belə bir ölkənin baş nazirinin Los-Ancelesdə qəbul olunmasının qeyri-məqbul olduğu bildirilib. Məqalələr sosial şəbəkələrdə geniş yayılaraq, sadə amerikalılar tərəfindən N.Paşinyanın səfərinin kəskin tənqidinə səbəb olub.

## "Azərsu" ASC-nin rəhbərliyi bölgələrdə vətəndaşları qəbul edib



Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin sentyabrında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq "Azərsu" ASC-nin sədr müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər.

ASC-dən AZƏRTAC-a bildirilib ki, "Azərsu" sədrinin birinci müavini Teyyub Cabbarov Göygöl şəhərində Göygöl və Daşkəsən rayonlarından olan vətəndaşlarla görüşüb. Sədr müavini Etibar Məmmədov isə Naftalan şəhərində Naftalan, Goranboy və Xocalı rayonlarından olan sakinləri qəbul edib.

Qəbullardan əvvəl "Azərsu" ASC-nin sədr müavinləri və yerli icra hakimiyyəti başçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Qəbullarda Göygöl, Daşkəsən, Naftalan, Goranboy və Xocalı rayonlarından olan 61 vətəndaşın müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən içməli su təchizatı və kanalizasiya, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşın müraciəti dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sevinc Fətəliyeva:

# Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində Azərbaycan qüdrətli dövlətə çevrilib



"Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində Azərbaycan qüdrətli, özünü təmin edən dövlətə çevrilib. Müasir müstəqil Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, bütün sahələrdə qazanılan parlaq nailiyyətlər ölkəmizin qarşısında yeni perspektivlər açır". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət qarşıya qoyulan strateji əhəmiyyətli hədəflərə çatmağa imkan verir, ölkənin sosial-iqtisadi inkişafının davamlılığını təmin edir. Həmçinin aşağı səviyyədə saxlanan dövlət borcu ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir, valyuta ehtiyatlarımız isə xarici borcumuzdan beş dəfə artıqdır. Onun sözlərinə görə, xüsusilə də neft gəlirlərinin strateji sahələrə yönəldilməsi nəticəsində milli iqtisadiyyatın dinamik inkişafı təmin edilib, qeyri-neft sektorunun tərəqqisinə nail olunub. Bir sözlə, 20 sentyabr 1994-cü il tarixdə "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan yeni neft strategiyası Azərbaycanın sürətli inkişafına şərait yaradıb. Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində ölkədə geniş-abadlıq quruculuq işləri aparılıb, paytaxt Bakının və regionlarımızın siması müasirləşib, əhəmiyyətli dərəcədə dəyişilib, yüksək infrastruktur təminatı yaradılıb, ölkənin maliyyə imkanları və valyuta ehtiyatları artıb və Azərbaycan qüdrətli, özünü təmin edən dövlətə çevrilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. Qazlaşdırma 96 faizdir, əhalinin 75 faizi isə daimi içməli su ilə təmin edilir və bu proses davam etdirilir. Sosial infrastruktur tamamilə yenidən qurulub, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir olunub.

"Ötən müddət ərzində Azərbaycanda güclü sosial siyasət həyata keçirilib, vətəndaşlar dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunub. Ölkəmizdə inqilabi xarakterli sosial islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yaxşılaşması üçün həyata keçirdiyi işlərin miqyası getdikcə genişlənir. Yüz minlərlə köçkünə yeni evlər, şəhid ailələrinə, müharibə veteranlarına isə güzəştlər, müavinətlər, mənzillər, minik avtomobilləri verilib. Bütövlükdə, dövlət başçısının rəhbərliyi altında aparılan islahatlar ölkəmizin "Doing Business 2019" hesabatında yeni rekorda imza artmasına imkan yaradıb. Azərbaycan 10 ən islahatçı ölkə siyahısında qərarlaşıb və MDB ölkələri arasında lider mövqe tutur. Dünyada etibarlı tərəfdaş kimi tanınan, praqmatik xarici siyasət həyata keçirən Azərbaycan, eyni zamanda, beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edirb. Azərbaycanın liderliyi və təşəbbüsü ilə mühüm enerji, nəqliyyat-kommunikasiya layihələri həyata keçirilir, yeni əməkdaşlıq platformaları yaradılır. Beynəlxalq münasibətlər sistemində güc mərkəzləri kimi xarakterizə edilən subyektlər - milli dövlətlər respublikamızla əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdırlar. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət kursunun real nəticələridir"- deyə, S.Fətəliyeva vurğulayıb.

Rauf Əliyev:

# Bədii Gimnastika üzrə Bakıda keçirilən 37-ci Dünya çempionatı uğurla başa çatdı



"Bakı şəhərində 16-22 sentyabr tarixlərində keçirilən Gimnastika üzrə 37-ci Dünya Çempionatı uğurla başa çatdı. 61 ölkəni təmsil edən 300-dən çox gimnast həm Dünya birinciliyi həm də 32-ci Yay Olimpiya Oyunlarına lisenziya uğurunda mübarizə aparmışlar. Azərbaycan Respublikasının I vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Dünya birinciliyi çox yüksək səviyyədə təşkil olunmuşdu". Bu fikirləri Milli Məclisin deputatı Rauf Əliyev deyib.

R.Əliyevin sözlərinə görə, mundial bir daha bütün dünyaya göstərdi ki, Azərbaycan artıq müxtəlif idman növləri üzrə Dünya və Avropa Çempionatlarının və digər beynəlxalq tədbirlərin keçirildiyi bir idman ölkəsinə çevrilmişdir. Azərbaycan Bakı-2015 I Avropa Oyunlarına, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1"-ə , UEFA Avropa Liqasına ev sahibliyi edib. Gələn il Avropa -2020-nin 3 qrup və 1 final oyunu Bakıda təşkil olunacaq. Bütün bunlar Azərbaycanın uğurlarıdır və eyni zamanda Azərbaycanın dünyada təbliğ olunmasında böyük rol oynayır.

"Gimnastlarımız bu çempionatda uğurla çıxış edərək 32-ci Yay Olimpiya Oyunlarına lisenziya qazanmışlar. Gimnastika sahəsində əldə olunan uğurlarımız Azərbaycanın I vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində respublikamızda idmanın bu növü üçün lazım olan, dünya standartlarına cavab verən maddi-texniki baza yaradılmış və Azərbaycanda gimnastika sürətlə inkişaf etmişdir. Azərbaycan gimnastları iştirak etdikləri bütün yarışlarda yüksək nəticələr əldə edirlər. İnanırıq ki, Gimnastika üzrə milli komandamız bundan sonra da yarışlarda uğurla iştirak edəcəklər və 2020-ci ildə Tokioda keçiriləcək 32-ci Yay Olimpiya Oyunlarında Azərbaycanı yüksək səviyyədə təmsil edəcəklər"- deyə, R.Əliyev vurğulayıb.

# Bu dövlət hamımızındır və onu qorumaq da hamının borcudur

**Milli Məclisin deputatı Elşən Musayevin www.yap.org.az saytına müsahibəsi**



***- Elşən müəllim, hazırda gündəmin əsas müzakirə mövzularından biri xaricdə mühacir adı ilə fəaliyyət göstərən dairələrin ölkəmizə qarşı apardıqları şər-böhtan kampaniyası ilə bağıdır. Sizcə, bu çirkin kampaniyanın əsasında hansı amillər dayanır?***

- İlk amil, ilk səbəb odur ki, Azərbaycanın uğurları bir çox qüvvələri qane etmir və bu uğurları qəbul etmək istəməyən, onu həzm edə bilməyən həmin xəbis xislətli qüvvələr öz daimi fəaliyyətlərindədirlər. Bu proses həmişə olub və indi də estafet davam edir. Azərbaycan inkişaf etdikcə, uğurlarımız artdıqca məlum düşmənlərin, bizi sevməyən qüvvələrin yönləndirdiyi proseslər də artan dinamika üzrə inkişaf edəcək. Hazırda mühacir adı ilə aldığı qrantların miqdarını çoxaltmağa çalışan, ölkədəki radikal stimulvericilərinə daha böyük həcmdə pul-para, pay-pürüş göndərməyə səy göstərən antimilli ünsür komandası formalaşıb. Təbii, haralardansa da himayə olunurlar və proqramlı fəaliyyət göstərirlər. Son dərəcə çirkin kampaniyadır, amma nə təəssüf ki, həmin kampaniya vicdanını, ləyaqətini, şərəfini itirən insanlar tərəfindən ardıcıl mərhələlər üzərindən davam edir. Kənardan görünə bilər ki, bu, hakimiyyətə, iqtidara qarşıdır. Xeyr! Bu birmənalı şəkildə dövlətə, dövlətçiliyə, azərbaycançılığa, mentalitetə qarşıdır. Həmin kütlənin dərdi xalq və dövlət deyil. Bu gün şər və iftira fəaliyyətini davam etdirən ünsürlərin xalqa və dövlətə azacıq da olsa aidiyyəti yoxdur. Sadəcə şəxsiyyət vəsiqələrində və pasportlarında azərbaycanlı sözü yazılıb. Vəssalam. Vidadi kimi tərbiyəsiz milliyətçi, xalq fədaisi ola bilərmi? Bu psixoz, narkoman dövlətin bu gününü, sabahını düşünə bilərmi? Əsla və əsla! Nə avantürist, nə söyüş ritorikasına köklənən, nə əslindən, nəslindən, kökündən, şəcərəsindən xəbəri olmayan varsa əlinə bir "nootbuk" alıb, internetə qoşulub, kanal açıb ölkəyə, ölkənin ləyaqətli insanlarına qarşı kənardan hədyan yağdırır. Biri adını bloqqer qoyub, biri veriliş aparıcısı, biri mühacir, biri məzlum. Absurddur. Hər mənada. Ən böyük absurd isə bu yaramazların hələ də məsuliyyətə cəlb edilməmələri, rahat formada dolanmaları, gəzmələridir.

Azərbaycan dövlətində hansısa əcnəbi öz ölkəsinin istənilən vətəndaşına qarşı belə informasiya terroru, mənəvi terror edə bilərmi? Bu, mümkündürmü? Əsla mümkün deyil. Dərhal tədbir görülər. Və nəinki Azərbaycanda, özünə, qanunlarına hörmət qoyan istənilən ölkədə. Demək ki, bizə demokratiyadan dərs keçmək həvəsinə düşən bəzi ölkələr ilk öncə öz qanunlarının aliliyini qorumalı, ilk öncə beynəlxalq hüququn ana prinsiplərini gözardına almamalı, Konvensiya tələblərinə hörmətlə yanaşmalı, ondan sonra uca səslə, bərkdən hansısa məhkəmə qərarlarının icra faizi haqqında müzakirələrə qoşulmalıdırlar, məruzəçi təyin etməlidirlər, demokratiya söhbətləri aparmalıdırlar. Görünən budur ki, Azərbaycan özü hazırda hamıya demokratiyadan dərs keçər. Ən azından bizə demokratiya haqqında uzun uzadı nağıllar danışanlara. Daha doğrusu, belə bir eşqə düşənlərə.

***- Narahatlıq doğuran bir məqam da mühacir müxalifətin xaricdəki müəyyən dairələrin maraqlarına xidmət etməsidir. Bu fakt nə dərəcədə təhlükəlidir?***

- Müxalifət, daha dəqiqi radikal müxalifət öz ampluasındadır. Dəyişən bir şey yoxdur. Əgər Əli Kərimli adında siyasətçi Vidadi İsgəndərlinin hərəkətlərinə dolayı yolla da olsa haqq qazandırırsa, bu yolu dəstəkləyirsə, Qənimətin dili, Natiqin ifası ilə təhqirin, söyüşün, şərin, böhtanın ən yüksək həddini özünə prioritet seçirsə, bundan sonra heç nəyə təəccüblənmək lazım deyil. Xislətləri və mahiyyətləri budur. Təbii, qorxulu tendensiyadır. Belə riyakarların əlində imkan olsa ölkənin taleyini hərraca qoyub, onu keçi qiymətinə satarlar. Çünki daim sata-sata gəliblər. Düzdür, bəzən alıcıları olmayıb, amma həmişə satmağa nələrisə olub. Öz liderini satan adamın sata bilməyəcəyi heç nə yoxdur. Bu aksiomdur! Əli Kərimli və onun tayları həmin kateqoriyadandır.

***- Ölkəmizin daxilindəki "beşinci kolon"un nümayəndələri də mühacir müxalifəti ilə sinxron fəaliyyət göstərirlər. Bu fakt onların eyni mərkəzdən idarə olunduğunu göstərirmi?***

- Onlar eyni komandadır. Nəinki sinxrondurlar, hətta bir can, bir qan, bir gendəndirlər. Üstəlik, ümumi maraqları üçün bütün mental dəyərlərdən, əsl həqiqətlərdən, gerçəklikdən uzaq durublar. Durmağa hazırdırlar! Təsəvvür edin, o gün Qənimətin verlişində Elçibəy açıq şəkildə təhqir olundu. Biz Elçibəyin müdafiəsinə qalxdıq, amma Kərimli qalxmadı, Qənimət cınqırığını da çıxarmadı. Niyə? Bəs Elçibəy axı sizin atanız, müəlliminiz, rəhbəriniz idi? Deyim niyə. Çünki indiki mərhələdə Əli Kərimliyə və onun silahdaşlarına hansısa başqa yaramaz ilə konflikt sərf eləmir. Bir daha qeyd edirəm: ümumi maraqlar var. Ona görə. Elə bir hala, vəziyyətə gəliblər ki, Leyla Yunus, Xədicə İsmayıl, Sevinc Osmanqızı bunların ideoloqlarına çevriliblər. "5-ci kolon"un nə ünsürü varsa onların beynindən, düşüncələrindən qidalanırlar. Hələ baxarsız, bir azdan internetdəki verilişlərinə Əlikramı-filan da çıxaracaqlar. Bəli, bu millətə, dövlətə düşmən olan kim varsa bunların dostudur. Yəni, məlum qüvvənin dost qəbul etmə yaradıcılığında ana xətt budur. Baxmayaraq ki, hər gün ifşa olunurlar, həm də faktlarla ifşa olunurlar - yenə dayanmırlar. Çünki yaramazlığın dayanacağı, durma yeri, əyləc basma nöqtəsi yoxdur, olmur. Çünki yaramazlıq abstrakt anlayışdır. Çünki yaramazın həyat kredosu, fəlsəfəsi tükənməyən və qəbrə qədər davam edən pisliklərin məcmusundan ibarətdir.

***- Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyinə qarşı ölkəmizdəki siyasi partiyaların və vətəndaş cəmiyyətinin həmrəyliyi nə dərəcədə vacibdir?***

- Bu fəaliyyət labüddür və var. Amma söhbət aparılan insanlar elə sadəcə partiya sədridir deyə masaya dəvət olunmamalıdır. O gün "dəyirmi masa"da müxalifət funksionerinin dilindən gördünüzmü hansı fikir səsləndi? Demə,"üsyan hüququ" varmış, amma bizim xəbərimiz yoxmuş. Belə adamlarla nə müzakirə, hansı müzakirə aparmaq olar? Təbii, radikal deyil, konstruktiv müxalifət qanadında bizimlə müəyyən məsələlərdə fərqli düşünən, fəqət millətçil, dövlətcil olan insanlar var. Qüdrət Həsənquliyev də müxalifətdir, düşüncəsini açıq şəkildə dilə gətirən adamdır, bir çox məsələlərdə iqtidarla eyni fəlsəfəni bölüşmür. Amma ləyaqəti, şərəfi, mənliyi həmişə üstündədir, əsl dövlət cəfakeşidir, əsl kişi obrazına sahibdir. Masada belə ləyaqətli müxalifətlə üzbəüz oturmaq lazımdır, polemika, müzakirə onlarla aparılmalıdır. Ayrıca, çox doğru buyurdunuz ki, vətəndaş cəmiyyətinin də bu istiqamətdə böyük hərəkətliliyinə ehtiyac var. Bu fikirlə iki əlli razıyam. Çünki hazırda siyasi kontingentlə bərabər ictimai yük daşiyan insanların da sayı olduqca çoxdur. Mən sizə tam səmimi deyim ki, sosial şəbəkələrdə, cəmiyyətdə öz sözünu, əsas da doğru sözü söyləyən insanların böyük əksəriyyəti məhz ictimai fəallardır. Onların içində vətənpərvər, millətini sevən insanların sayı yetərincədir. Yəni, sözümün canı budur ki, fərq etməz kim hansı cəbhədədir, dövlət marağını şəxsi maraqlardan üstün tutan hər kəsi mövzu ətrafında birləşdirmək və xaricdə ölkəmizə qarşı planlanan məkrli ssenarilərə qarşı səfərbər etmək lazımdır. Bu dövlət hamımızındır. Onu qorumaq da hamının borcudur.

# “Yaşıl dəhliz”: İxrac idxalı 2 dəfəyə yaxın üstələyib

**Azərbaycanda tətbiqinə cari ilin fevralın ayının 1-dən başlanılmış “Yaşıl dəhliz” buraxılış sistemindən istifadə etmək üçün 600-dən çox xarici fəaliyyət iştirakçısı müraciət edib ki, onlardan 450-nə həmin hüquq verilib. Dövlət Gömrük Komitəsinin sədr müavini İsmayıl Hüseynovun sözlərinə görə, sistemin iştirakçılarının bu ilin ilk 8 ayında idxalda payı 22,45 faizə, ixracda isə 30 faizə çatıb.**

Bununla da “Yaşıl dəhliz” buraxılış sistemindən istifadə hüququ qazanmış idxalçı subyektlərin (275) sayının ixrac həyata keçirənlərdən (174) çox olmasına baxmayaraq, sözügedən sistemdən yararlanmaqla həyata keçirilən əməliyyatlarda ixracatçıların daha fəal olduqları ortaya çıxır. 8 ayın yekunlarını nəzərə alanda bu sistem vasitəsilə həyata keçirilmiş ixracın dəyəri 4 milyard 55,97 milyon ABŞ dolları, idxalın dəyəri isə 2 milyard 106,24 milyon dollar olub. Başqa sözlə, “Yaşıl dəhliz” buraxılış sistemi ilə həyata keçirilmiş ixrac idxalı dəyər ifadəsində 2 dəfəyə yaxın üstələyib.




Qeyd edək ki, “Yaşıl dəhliz”dən istifadə malların və nəqliyyat vasitələrinin gömrük sərhəd buraxılış məntəqələrindən daha sürətli keçidinin təmin edilməsi, minimum fiziki yoxlamalar, gömrük rəsmiləşdirilməsinin iş yerindən və iş vaxtından kənar aparılması və digər bu kimi üstünlüklər yaradır ki, bu da həmin sistemin iştirakçısı olan sahibkarların əvvəllər bu sahədə qarşılaşdıqları problemlərdən sığortalayır.

Məsələ bundadır ki, “Yaşıl dəhliz”dən istifadə sahibkarlara idxal olunan malların şəxsin anbarlarına birbaşa aparılması, gömrük bəyannaməsi təqdim olunduğu təqdirdə, gömrük orqanlarının razılığı əsasında malların daşındığı nəqliyyat vasitələrindən gömrük eyniləşdirmə vasitələrinin müstəqil qaydada çıxarılması və malların boşaldılması, ixrac zamanı isə gömrük orqanına getmədən, ixrac olunan mallara və nəqliyyat vasitələrinə dair məlumatları özündə əks etdirən gömrük bəyannaməsini elektron qaydada gömrük orqanlarına təqdim etməklə, malların bəyan etdiyi gömrük sərhəd buraxılış məntəqəsinə birbaşa göndərilməsi, gömrük orqanlarının tanıdığı eyniləşdirmə vasitələrinin müstəqil tətbiqi kimi spesifik üstünlüklər verir.

Bu hüquqdan istifadəyə gəldikdə isə istifadəçilər üçün tələblər idxal əməliyyatları ilə müqayisədə ixrac əməliyyatları üzrə daha sadədir. Qaydaya əsasən, idxal əməliyyatlarının həyata keçirilməsi sahəsində son 1 il ərzində təcrübəsi olan, gömrük orqanlarının təqdim etdikləri elektron xidmətlərdən istifadə bacarıqları olan və ya bu xidmətlərdən istifadəni təmin edəcək səlahiyyətli şəxslə müqaviləsi olan, daşımaları beynəlxalq daşıma standartlarına cavab verən nəqliyyat vasitələrindən istifadə edilməklə həyata keçirən, Nazirlər Kabinetinin müəyyən etdiyi tələblərə cavab verən və malların saxlancı üçün nəzərdə tutulan anbarlardan istifadə edən, qaçaqmalçılıq və ya gömrük ödənişlərinin ödənilməsindən yayınma ilə bağlı cinayətə görə məhkumluğu olmayan, o cümlədən məhkumluğu ödənilmiş və ya götürülmüş aşağı risk qrupuna aid hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs həm idxal, həm də ixrac əməliyyatlarının həyata keçirilməsi üçün “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ qazanır.

Lakin məsələyə sırf ixrac müstəvisindən yanaşdıqda, aşağı risk qrupuna aid şəxsin bu tələblərin heç də hamısına cavab verməsinə ehtiyac qalmır. Belə olan halda gömrük orqanlarının təqdim etdikləri elektron xidmətlərdən istifadə bacarıqları və ya bu xidmətlərdən istifadəni təmin edəcək səlahiyyətli şəxslə müqaviləsi olan, daşımaları beynəlxalq daşıma standartlarına cavab verən nəqliyyat vasitələrindən istifadə edilməklə həyata keçirən, qaçaqmalçılıq və ya gömrük ödənişlərinin ödənilməsindən yayınma ilə bağlı cinayətə görə məhkumluğu olmayan, o cümlədən məhkumluğu ödənilmiş və ya götürülmüş şəxs ixrac əməliyyatları həyata keçirilməsi üçün “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ əldə edə bilir.

Bununla belə, əvvəllər bu sahədə problemlərin daha çox idxal əməliyyatlarını əhatə etməsi “Yaşıl dəhliz” sisteminin tətbiqinin daha çox idxal həyata keçirən subyektlər üçün aktual olacağı sirr deyildi. Bunu bu sistemdən istifadə hüququ almış subyektlərin say nisbəti də bir daha nümayiş etdirir.

Görünən odur ki, ixrac həyata keçirən şəxslər sistemdən istifadədə daha fəaldırlar. Burada sistemdən istifadəyə qoyulmuş tələblərdən irəli gələrək şəffaflığın daha da artırılması amili burada öz sözünü deyir.

İstənilən halda “Yaşıl dəhliz” buraxılış sistemi idxal-ixrac əməliyyatlarını asanlaşdırmaqla bərabər, qanuna könüllü riayət etmək mədəniyyəti də yaradır. Bu da həm gömrük orqanlarının, həm də sahibkarların mənafelərinə xidmət edir. Nəticədə bu amil ölkənin ticarət dövriyyəsinin, o cümlədən ixracın artmasını da stimullaşdırır.

✍ **Ceyhun Piriyev,**
***“İki sahil”***

# Viza haqqında nələri bilməliyik?

**Son zamanlar viza verilməsindən imtina ilə bağlı halların tez-tez təkrarlanması insanlar arasında müəyyən suallar yaranmasına səbəb olur. Bildiyimiz kimi, viza, bir dövlətin xarici nümayəndəlikləri və ya gömrük orqanları vasitəsilə ölkəsinə səyahət edəcək əcnəbi vətəndaşın xarici pasportuna edilən rəsmi qeyd və ya icazədir. Bu sənəd olmadan ölkədən-ölkəyə keçmək, dünya üzərində səyahət etmək mümkün deyil.**




Miqrasiya və turizm üzrə ekspert Azər Allahverənov mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, viza müraciətində ilk və ən əsas qayda müraciətin şəxsən edilməsidir: “ Müraciət edərkən sənədlərin tam olmasına diqqət edin. Saxtalaşdırılmış və ya saxta sənədlərlə müraciət etmək qanunlara görə cinayət hesab olunur. Pasport saxta olmamalıdır. Təhrif edilmiş pasporta viza alsanız belə, sərhəddən geri qaytarılacaqsınız. Pasportunuzun etibarlılıq müddətinin müraciət tarixindən etibarən ən azı bir il olmasına diqqət etməlisiniz. Səyahətinizi həyata keçirə bilmək üçün yetərli maliyyə imkanlarına sahib olduğunuz sənədləşdirilməlidir. Müsahibə zamanı səlahiyyətli şəxsin suallarına düzgün cavab verməyiniz, onda haqqınızda müsbət təəssürat yaranması müraciətinizin qəbul edilmə şansını artırır. Bu müsahibənin məqsədi isə səyahət edəcəyiniz ölkənin müvafiq orqanlarının bu ölkəyə səyahət edəcək xarici vətəndaşlar üçün təyin etdiyi şərtlərə uyğun olub-olmadığınızı anlamaqdır. Heç bir yerdə işləmirsinizsə və ya özünüzün və himayənizdə olan şəxslər varsa, həmin şəxslərin dolanışıqlarını təmin edə biləcəyiniz daimi və yetərli gəlir səviyyəsinə sahib deyilsinizsə, bütün bu sadalananlara görə viza almaq şansınız olduqca aşağıdır. Belə bir vəziyyətdə, viza üçün müraciət etməməyiniz daha məqsədəuyğundur.”

A.Allahverənov viza müraciətlərindən imtinanı dövlətin milli suverenlik səlahiyyəti olduğunu qeyd etdi: “Səyahət azadlığı əsas insan hüquqlarından biridir. Ancaq dövlətlərin ölkələrinə hansı xaricilərin gedəcəklərinə qərar vermək səlahiyyətləri beynəlxalq hüquq prinsipidir. Unudulmamalı bir məsələ də viza müraciəti təsdiqlənmədiyi səyahət azadlığına dair məhdudiyyətin olmasıdır. Sizin, bir ölkəyə daxil ola bilməməyiniz səyahət azadlığınızın məhdudlaşması kimi görünsə də, dövlətlərin sizin ölkələrinə daxil olub-olmayacağınıza qərar vermək hüququ var. Dövlətlər ölkələrinə hansı xarici vətəndaşların gedə biləcəyini öz milli mənfəətlərinə görə müəyyən edirlər. Hər dövlətin ölkələrinə girişinin qadağan etdiyi və ya təhlükəli hesab etdiyi ölkə siyahıları var. Eyni zamanda, qadağan olunanlar siyahısında mövcud olmayan bir xarici vətəndaşa, maliyyə cəhətdən yük təşkil edəcəyi, ictimai asayişi poza biləcəyi və dövlət səhiyyə müəssisələrində risk yarada biləcəyi səbəblərinə görə də viza verilməməsi mümkündür. Beynəlxalq hüquqda dövlətlərin milli suverenlik səlahiyyətləri əsasdır. Milli suverenlik səlahiyyətləri arasında ölkələrinə hansı xaricilərin hansı şərtlərlə daxil olacağını təyin etmək də var. Dövlətin bu səlahiyyəti beynəlxalq hüquq cəhətdən danılmaz faktdır. Viza da bu suverenlik hüquqlarından biridir. Buna görə də müraciətinizin rədd edilmə ehtimalının olduğunu bilib tələbinizdən imtina etməklə həm vaxt, həm də pulunuza qənaət etmiş olacaqsınız. Çünki bəzi ölkələr viza xərcləri ilə yanaşı, yüksək məbləğlərdə müraciət və ya prosedur xərclərini də alır. Bu şərtlər ölkələrdən asılı olaraq fərqlilik göstərir. Müvafiq nümayəndəlikdən bu haqda məlumat almağınızda fayda var. Viza müraciətinin rədd edilməsinə etiraz, ilk öncə vizanı rədd edən nümayəndəliyə yazılı şəkildə edilməlidir. İstənilən müsbət cavab alınmadığı təqdirdə, etiraz üçün məhkəməyə müraciət oluna bilər. Ancaq vizanın rəddi üçün müraciət olunacaq məhkəmələrin sayı məhduddur. Eyni zamanda, ümumilikdə uzun vaxt aparan məhkəmə prosedurunun sonunda, məhkəmənin dövlət əleyhinə nəticələnmə ehtimalı da olduqca zəifdir.”

Turizm üzrə mütəxəssis Ülfanə Mahmudova isə bu məsələ ilə bağlı mətbuata açıqlamasında bildirdi ki, Asiya ölkələri, demək olar ki, viza verilməsinə imtina etmirlər: “Çox nadir hallarda yalnız Birləşmiş Ərəb Əmirliklərinə viza alarkən imtina oluna bilər. Viza verilməsindən ən çox imtina edən ölkələr sırasında ilk yerləri ABŞ, Böyük Britaniya və Macarıstan tutur. ABŞ, Kanada və Böyük Britaniya kimi ölkələrə səfər edərkən mütləq səyahət tarixçənizə nəzər yetiriləcək. Əgər siz bu günə kimi hər hansı bir Avropa ölkəsinə səfər etməmisinizsə və ilk səfərinizi ABŞ-a planlaşdırmısınızsa, o zaman viza verilməməsi ehtimalı böyükdür. Həmçinin Böyük Britaniyaya da viza alınarkən ciddi şəkildə səyahət tarixçəsinə nazarət edilir. ABŞ-a viza almaq digər ölkələrlə müqayisədə daha çətindir. Buna səbəb ölkənin immiqrantların gəlişinin qarşısını almaq istəyidir. Viza imtinası alındığı təqdirdə, yaxşı olar ki, 3-6 ay fasilədən sonra yenidən müraciət edəsiniz. Lakin viza verilməsi qaydalarında hər hansı fasilə yoxdur. Amma bir ölkə vizadan imtina verdiyi təqdirdə, digər səfirliklər də viza verilməsindən imtina edirlər.”

✍ **Yaqut Ağaşahqızı,**
***“İki sahil”***

# Paşinyanın özünüifşa mərhələsi başlayıb



**Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi açıqlamalar və ümumilikdə əndrabadi siyasi "manevrləri" onun çox gerizəkalı olduğunun göstəricisidir və bununla ölkəsinə, onun işğalçılıq siyasətinə qarşı hər gün daha çox beynəlxalq qınaq yaradır. Məsələn, onun ATƏT-in Minsk qrupunun mövcud formatından imtina etmək və yeni variantların axtarılmasına dair fikirləri həm Azərbaycanda, həm də ATƏT-də ciddi etirazla qarşılandı. Ona görə ki, bu format münaqişənin həllində beynəlxalq hüquqa söykənir.**

Eyni zamanda, bu boşboğaz baş nazirin Azərbaycanın işğal olunmuş ərazisində Dağlıq Qarabağda ümumerməni oyunları kimi avantürist tədbirlərə qatılması və orada "Qarabağ Ermənistandır. Nöqtə" deməsi onun növbəti sərsəmləməsidir. Çünki bütün dünya dövlətləri, o cümlədən beynəlxalq siyasi və hüquqi təşkilatlar Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyırlar. Bu isə beynəlxalq hüquq normalarına əsaslanır. Belə ki, 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsində imzalanan Yekun Aktda 10 əsas prinsip rəhbər tutulub. Bunlardan ən əsasları suveren bərabərlik, zor işlətməmək, sərhədlərin toxunulmazlığı prinsipi və sairədir. Ölkəmiz bu Aktı 1992-ci ildə imzalamışdır. Yekun Aktına görə, İkinci Dünya Müharibəsindən sonrakı ərazi münaqişələrinin həlli ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğunlaşdırılır.

Bundan başqa, münaqişələrin həllini beynəlxalq hüquq çərçivəsində gündəmə gətirən ən nüfuzlu beynəlxalq təşkilat BMT-nin də işğal edilmiş Azərbaycan ərazilərinin dərhal və qeyd-şərtsiz azad olunmasına dair məlum dörd qətnaməsi mövcuddur. Bunlar bir daha aydın şəkildə göstərir ki, Ermənistan işğalçıdır və Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək qaçılmazdır.

Nikol Paşinyan dəfələrlə iddia edib ki, Azərbaycan Ermənistanla deyil, guya qondarma "DQR xalqı" ilə müharibə aparır. Ona görə də o, danışıqlarda daha çox qondarma "DQR"in əhalisinin tərəf kimi iştirak etməsini irəli sürürdü. Əgər onun dedikləri həqiqətdirsə, bəs bu debil "siyasətçi" başqa bir dövlətin rəhbəri olduğu halda, niyə beynəlxalq aləmin də Azərbaycan ərazisi kimi tanıdığı Dağlıq Qarabağa tez-tez səfər edir? Onun ötən aylarda Şuşada "Yallı" getməsi isə Ermənistanın işğalçı simasını dünyaya bir daha göstərmiş oldu.

Ən dəhşətlisi isə Paşinyanın oğlunun Ermənistan vətəndaşı olduğu halda Azərbaycanın ərazisində, Dağlıq Qarabağda əsgəri xidmətini davam etdirməsidir. Bu, heç bir ciddi siyasətçiyə, dövlət başçısına müsbət şeylər vəd etmir. Bununla Paşinyan erməni xalqı qarşısında bəlkə də müsbət imic qazana bilər, ancaq bütün dünyada bunu avantürist bir siyasi fəaliyyət kimi dəyərləndirirlər.

Bu arada ölkəmiz üçün bir önəmli faktı da qeyd etmək lazımdır. Avropa İttifaqının yüksək rəsmiləri bildiriblər ki, Paşinyanın iddia etdiyi kimi, yeni formatın yaradılmasına ehtiyac yoxdur və razılaşdırılmış variantlara alternativ axtarmaq mənasızdır. Bu, əslində Nikol Paşinyana ciddi mesajdır ki, artıq bu münaqişənin həlli istiqamətində imitasiya ilə məşğul olmaq deyil, əksinə ciddi addımların atılmasının zamanı çatıb.

Nikol Paşinyan hakimiyyəti bir çox hallarda özünü Avropaya meyilli siyasətçi kimi göstərməyə çalışır. Hətta onun bir müddət əvvəl ölkəsindəki Rusiya hərbi bazasının Ermənistandan çıxarılmasına yönəlik fikirlərini də hökumətindəki bir çox məmurlar dəstəkləyiblər. Xüsusilə Ermənistanın müdafiə naziri David Tonoyan da bu istəyi açıq şəkildə dilə gətirərək 102-ci hərbi bazanın statusunun dəyişdirilməsini sətiraltı ifadə edib. Ötən ilin payızında Ermənistanın Panik kəndində rus hərbçilərinin təlimləri belə Ermənistan rəhbərliyinin sərt reaksiyası ilə qarşılaşmışdı və rəsmi şəkildə Rusiyanın əleyhinə çoxsaylı bəyanatlar səslənmişdi. Hətta baş nazir Nikol Paşinyan Moskvanı məsələyə rəsmi münasibət bildirməyə çağırmışdı. Lakin sonradan fikirlərində bəzi dəyişikliklər etdi.

Bəs görəsən Ermənistan müdafiə nazirinin səsləndirdiyi anti-Rusiya bəyanatlarının arxasında nə gizlənir? Rusiyalı politoloqlar hesab edirlər ki, Paşinyan hökuməti Avropadan pul qopartmaq üçün ikili oyun oynayır. Eyni zamanda, göstərmək istəyir ki, onun hakimiyyəti ölkəsini Rusiyanın orbitindən çıxarmağa çalışır.

Ermənistan mətbuatı yazır ki, Moskva Ermənistanı sözəbaxan, Rusiyanın sözü ilə oturub-duran ölkə kimi görmək istəyir: "Lakin Rusiya bir dəfə də olsun Ermənistanı xilas etməyib, əksinə, onu yalan vədlərlə doyuzdurub, Azərbaycanla münasibətləri qabardıb. İndi isə biz Rusiya ilə bərabərhüquqlu tərəfdaşlıq istəyirik."

Məhz ötən il Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın həbsi Rusiyanın hakim dairələrində birmənalı qarşılanmadı. Ruslar bunu Qərbin əlinə oynayan Paşinyan hakimiyyətinin Rusiyaya təzyiq vasitəsi kimi yozdular. Çünki həm Koçaryan, həm də Sarkisyan Rusiyanın ən sadiq köpəkləri olublar.

Təbii ki, Ermənistanın Avropa Birliyinə qoşulmaq istəyi heç də göründüyü kimi sadə deyil. Çünki Avropa Birliyi ərazilərində münaqişə olan dövlətləri öz sıralarına qəbul etmək niyyətində deyil. Bu səbəbdən də ilk növbədə Ermənistandan Dağlıq Qarabağ münaqişəsini birdəfəlik həll etməyi tələb edirlər. Bütün beynəlxalq normativlərə əsasən isə problem Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bunun digər variantı isə sadəcə mümkün deyil.

Bir sözlə, bu gün Avropada Ermənistana qarşı mənfi münasibət dəyişməyib. Bu, özünü Nikol Paşinyanın son bir neçə ayda ianələr üçün Avropaya etdiyi səfərlərin uğursuzluğunda da göstərdi. Əliboş qayıdan Paşinyan ölkəsinin geosiyasi mövqelərinin hələ də zəif olduğunu bir daha anladı.

**Elçin Zaman,**
***"İki sahil"***

# Bakı Ali Neft Məktəbinin startapı ABŞ-ın məşhur biznes inkubasiya proqramında



Bakı Ali Neft Məktəbinin (BANM) dosenti və tələbələrinin yaratdığı "ThermoNorth" startapı ABŞ-ın "GIST" ("Global Innovation through Science and Technology") biznes inkubasiya proqramına qəbul olunub.

İnkubasiya proqramının əsas məqsədi dünya üzrə ən güclü elm və texnologiya startaplarını Amerikaya cəlb etmək və biznes tərəfini inkişaf etdirmək üçün onlara kömək etməkdir. "ThermoNorth" layihəsi Hyustonda yerləşən "The Station Houston" və Vaşinqtondakı "WeWork" dünyaca məşhur startap mərkəzlərində inkişaf etdiriləcək.

"ThermoNorth" startap ideyası əsasən BANM-in dosenti Əmir Reza Vaxşurinin vaxtilə müdafiə etdiyi dissertasiya işindən yaranıb. Startap layihəsinin formalaşması və inkişafında BANM-in Kimya mühəndisliyi ixtisasının məzunları Elmar Əsgərzadə, Hüseyn Əliyev, Murad Rəhimov, Aleksandr Oborovski və Yadigar Nəzərov iştirak edirlər.

Layihənin əsas məqsədi elmi araşdırma ilə əldə olunmuş yeni enerji depolayıcı maddənin köməyilə maşın mühərrikini uzun müddət optimal temperaturda saxlamaqdan ibarətdir. Hər bir maddə mikro ölçüdədir və bu enerji depolayıcı maddələr mikro ölçüdə kapsullaşdırılıb. Bu hissəciklər kiçik "enerji akkumulyatoru" rolunu oynayır.

Mühərriki optimal temperaturda saxlamaq isə hazırda soyuq iqlim şəraiti olan ölkələrdə mühərriklə bağlı mövcud olan bir-sıra problemləri həll edir: məsələn, artıq yanacaq sərfiyatı, mühərrik detallarının sıradan çıxması və enerji batareyasının ömrünün azalması və s.

# Fransalı alimlər BDU-nun Nano Araşdırmalar Mərkəzi ilə əməkdaşlıq edəcəklər

Fransanın Monpelye Universitetinin alimləri - professor Fransua Henn və gənc tədqiqatçı Adrien Novrin Bakı Dövlət Universitetinin (BDU) Nano Araşdırmalar Mərkəzində olublar.



AMEA Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, Fizika İnstitutunun direktoru, akademik Nazim Məmmədov və Nəqliyyat Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Yüksək Texnologiyalar üzrə Tədqiqat və İnkişaf Mərkəzinin direktoru, professor Sevda Abdullayevanın da iştirak etdikləri görüşdə qonaqlara mərkəz haqqında məlumat verilib, yerinə yetirilmiş tədqiqat işləri barədə danışılıb.

Dünya elminin tələblərinə cavab verən istiqamətlərdə müştərək elmi-tədqiqat və inkişaf layihələrinin yerinə yetirilməsinin əhəmiyyətindən danışan rektor Elçin Babayev alim və tədqiqatçıların səfər mübadilələri yolu ilə kadr hazırlığı, birgə elmi konfranslar, simpoziumlar, seminarlar və təcrübə kurslarının təşkili məsələlərinə toxunub.

Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə başa çatıb.

# "Mən sizin dostunuz olacağam"

## AZTU-NUN REKTORU I KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜB



Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru, professor Vilayət Vəliyevin sentyabrın 23-də ölkənin aparıcı ali texniki təhsil ocağının birinci kurs tələbələri ilə görüşü keçirilib.

AzTU-nun İctimaiyyətlə əlaqələr şöbəsi xəbər verir ki, yenicə tələbə adını qazanan gəncləri təbrik edən rektor Texniki Universiteti digər ali məktəblərdən fərqləndirən cəhətlərə diqqəti cəlb edib, tələbələrə olan tələb və gözləntilərini səsləndirib. AzTU-nun təcrübəli professor-müəllim heyətinə sahib olmasından, tələbə-müəllim münasibətlərindən, yeni tədris ilində ciddi dəyişikliklərin hədəflənməsindən danışan professor V.Vəliyev keçmişi arxada buraxaraq gələcəyə baxmağa çağırıb, yaşadığımız elmi-texnoloji inqilablar dövründə müasir təhsil üsullarına keçməyin vaxtı çatdığını bəyan edib.

Tələbələri fəal olmağa çağıran, "zəif, kəsirli tələbə bizə yad olmalıdır" deyən rektor şəffaf münasibətləri vacib saydığını, tələbələrin yanında olacağını, onlara hərtərəfli dəstək verəcəyini bildirib: "Mən sizin dostunuz olacağam!"

Professor V.Vəliyevin sözlərinə əsasən, AzTU Elmi Şurasının oktyabrın 2-də keçiriləcək iclasında Texniki Universitetin fəaliyyəti və gələcək inkişafı üçün önəmli məsələlər müzakirə ediləcək və mühüm addımlar atılacaq.

Görüşdə AzTU rektoru tələbələri maraqlandıran və narahat edən sualları cavablandırıb, onlara bir daha uğurlar arzulayıb.

**Materialları hazırladı: Zamin Məmmədov, *"İki sahil"***

# Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası



**AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Əvvəlcə Bölmənin sədri, akademik İsmayıl Hacıyev gündəlikdəki məsələlər barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" Sərəncamının əhəmiyyətini vurğulayan İsmayıl Hacıyev Ali Məclis Sədrinin müvafiq Fərmanı ilə isə Fondun Nizamnaməsinin təsdiq edildiyini bildirib. Qeyd edib ki, məqsəd Naxçıvanda fundamental elmi yeniliklərin stimullaşdırılması, onun təbii resurslarının, mədəni və tarixi irsinin tədqiqinin genişləndirilməsi, elmin müxtəlif sahələrində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən innovativ layihələrin dəstəklənməsidir.

Müəssisə rəhbəri sözügedən Sərəncamla əlaqədar Naxçıvan Bölməsinin qarşısında duran vəzifələrdən danışıb.

Daha sonra iclasda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərlinin 70 illik yubileyinin qeyd edilməsi və səmərəli elmi fəaliyyətinə görə onun Bölmənin Fəxri Fərmanı ilə təltif edilməsi ilə bağlı qərar qəbul edilib.

Tədbirdə Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Musa Quliyevin "Böyük sərkərdə I Kalbalı xan Kəngərli-Naxçıvanskinin həyatı və fəaliyyəti rus şərqşünası, tarixçi K.M.Smirnovun elmi əsərlərində" mövzusunda elmi məruzəsi dinlənilib.

Müzakirəyə çıxarılan növbəti məsələ qarşıdan gələn payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə bağlı olub. Bu barədə Bölmənin İşlər İdarəsinin baş mütəxəssisi Abbasəli Maqsudov iştirakçılara məlumat verib.

İclasda, həmçinin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının fəaliyyəti ilə bağlı laboratoriya rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynovun çıxışı dinlənilib. O, son illərdə laboratoriyanın əldə etdiyi mühüm elmi nailiyyətlər barədə ətraflı məlumat verib. Sonda aparılan elmi-tədqiqat işləri müzakirə edilib və bu işlərin istehsalatda tətbiqinin artırılması ilə bağlı müvafiq göstərişlər verilib.

İclasda bir sıra elmi-təşkilati və cari məsələlərə də baxılıb.

AMEA Naxçıvan Bölməsinin
İnformasiya şöbəsi

## Sızma aşkar olunub



ABŞ-ın Kaliforniya ştatının Santa Barbara əyalətinin yanğınsöndürənlərinin verdikləri məlumata görə, Santa Mariya şəhərində yerləşən "ERG Operating Company" şirkətinin yaxınlığında ötən həftənin cümə günü neft sızması müşahidə olunub. Yanğın departamenti hadisənin ilkin olaraq 11:45 radələrində Bell Lease adlı ərazidə qeydə alındığını bildirib .

"Iki sahil" "edhat.com" saytına istinadən xəbər verir ki, mütəxəssislər sözügedən ərazidən əməliyyat zamanı su ilə qarışıq 330 barrel neft aşkar ediblər. Sızmanın ətraf mühitə təsirinin olmadığı qeyd edilib.

Neft və qaz mütəxəssisləri hadisənin səbəbini və əks təsirlərini araşdırırlar.

## Quyunun qazılmasına start verilib



Monqolustanın "Petro Matad Limited" neft kəşfiyyatı şirkəti Monqolustanın şərqində "Gazelle-1" kəşfiyyat quyusunun qazma işlərinə start verib.

Qeyd edək ki, qazma işlərinə nəzərdə tutulan vaxtdan daha tez başlanılıb.

"Gazelle-1" quyunun ümumi dərinliyi 2500 metrdir və quyuda qazma işləri təxminən 35 gün çəkəcək.

"İki sahil" "sharesmagazine.co.uk" saytına istinadən xəbər verir ki, quyunun yerləşdiyi "Gazelle" yatağından 13 milyard barrel ehtiyat hasil olunur.

Quyu "T19-46-1" quyusunun 4.5 km cənub-qərbində yerləşir.

"Gazelle-1"quyusunun lazimi vaxtda qazıldığı və noyabr ayına qədər quyuda sınaq əməliyyatlarının aparılacağı deyilir.

# Əli Kərimlinin troll dəstəsi özünü ifşa etdi

## AXCP SƏDRİNİN SİYASİ İFLASI

**Dünyanın inkişaf etmiş ölkələrində hakimiyyət konstruktiv müxalifətin olmasında maraqlıdır. Ona görə ki, müxalifətsiz cəmiyyət inkişafsız cəmiyyətdir . Adətən konstruktiv müxalifət hakimiyyətin qüsurlarını kənardan aydın görüb onu şərh edir, təkliflər verir, seçkilərdə rəqibinə qarşı bu faktlardan yararlanaraq sivil şəkildə mübarizə aparır.**

Təbii ki, Azərbaycanda da belə müxalifətin formalaşması mövcud hakimiyyətin istəyidir. Çünki bu, ölkənin demokratik inkişafı üçün vacib şərtlərdən biridir. Lakin xaricdəki və daxildəki anti-Azərbaycan qüvvələr ölkəmizdə sivil müxalifətin yaranmasına deyil, dağıdıcı müxalifətin formalaşmasına nail olublar.

Belə ki, AXCP sədri Əli Kərimli və onun inhisarında olan qondarma "Milli Şura" xarici maliyyə vəsaitləri hesabına dövlətimizə və onun milli mənafelərinə qarşı zərərli addımlarını bu gün də davam etdirirlər. Bu dağıdıcı siyasi təşkilatların fəaliyyəti və xarakteri imkan vermir ki, onlar ciddi sosial baza toplamaqla seçkilərdə müsbət nəticələrə nail olsunlar.



Bu gün dağıdıcı düşərgənin fəaliyyəti çox iyrənc bir vəziyyətə gəlib çıxıb. Yəni bu partiyalar demokratiyadan dəm vursalar da əslində, burada çoxluğun azlıq üzərində diktaturası hökm sürür. Ona görə ki, onların liderləri partiyadaxili demokratik islahatları qəbul etmirlər. Fikir verin, Əli Kərimli 19 ildir ki, AXCP sədridir. Bu 19 ildə onun ideologiyasında, siyasi texnologiyalarında, cəmiyyətə sivil baxışlarında heç bir proqressiv dəyişiklik yoxdur.

Eyni zamanda, bu da biabırçı faktdır ki, heç bir sivil cəmiyyətdə siyasi partiyaya bu qədər uzunmüddətli rəhbərlik etmirlər. Xüsusilə də bir neçə seçkidə məğlub olan partiya sədri dərhal istefa verərək ya siyasətdən, ya da ki, partiya rəhbərliyindən uzaqlaşır.

Digər tərəfdən, dağıdıcı müxalifət partiyalarının kadr potensialı o qədər zəifdir ki, hətta onların funksionerlərini cəmiyyətin böyük qismi tanımır. Çünki dağıdıcı düşərgənin rəhbərləri cəmiyyəti cəlb edəcək alternativ proqramlarla çıxış etmək gücündə də deyillər. Sanki onların vəzifələri sadəcə, hakimiyyətə böhtan atmaq, olanların hətta ən yaxşı işlərinə kölgə salmaqdır.

Bundan başqa, Əli Kərimli indi öz siyasi varlığını troll dəstəsi ilə sosial şəbəkədə yaşatmaq istəyir. Onun bu dəstəsi sözün həqiqi mənasında Əli Kərimlinin muzdlu qulları kimi çıxış edirlər. Budur bu rəzilliyə dair mötəbər bir fakt: AXCP Ali Məclisinin üzvü Rəşid Turabovun trolların idarə olunduğu qapalı "WhatsApp" qrupuna göndərdiyi səsyazısı Əli Kərimlinin troll şəbəkəsini ifşa edib.

Səs yazısında aydın şəkildə etiraf olunur: "Çalışmalarımız zəifdir. Bir çox cəbhədaşlarımız var ki, oturub bu qrupda. Əsəblərim artıq partlayır. Kim cəbhəçi ismini daşıya bilmirsə, desin ki daşıya bilmirəm. Sadəcə protokollarda cəbhəçi adını daşımaqla heç nə əldə edə bilməzsiniz. Zatən biz monitorinq aparırıq və kimin nə iş gördüyünü bilirik. Uşaq oyuncağı ilə oynamırıq burada. Mən, Ayaz Məhərrəmli, Süleyman, Mahir bəy qaçırıq ora-bura. Amma Vasif Müzəffərovu görmürük. Rahad bəyi ildə-ayda bir dəfə görürük. Digər dostlarımız var ki, onları görmürük. Əgər sizi görmürüksə, siz nə üçün varsınız? İsgəndər bəy deyir mən feministəm, çıxır gedir dənizə. Sən burada cəbhəçi ola bilirsənsə ol, ola bilmirsənsə get harada istəyirsən feminist ol. Əgər sizdən bir şey olmayacaqsa, gedim yeni üzvlərə vaxtımı sərf edim, bəlkə onlarla nəsə alındı. Bezdirmisiz artıq, mən niyə hər dəfə xəbərdarlıq yazmalıyam. Mən səni Əli bəyin səhifəsində görmürəm. Bəs nə işlə məşğulsuz. İsgəndər bəy feministdir, gedir jurnalist qızlarla pivə vurur. Çox gözəl, heç olmasa gəl Əli bəyin statusunun altında yaz. Vasif bəy, bəs sən hardasan? Heç olmasa gəl Əli bəyin statusunun altında yaz, qisasını al. Şüvəlan qrupundan Natiq, Tahir bəyi görmürük. Rəşad, Lütvi bəy sizi də görmürük. Biz sizin də yükünüzü daşımalıyıq?".

Bununla da Əli Kərimlinin troll dəstəsinin rəzil kimliyi və xarakteri tam aydın görünmüş oldu. Təbii ki, Kərimli birdəfəlik dərk etməlidir ki, avara, bivec gəncləri özünün səhifəsinə zorla cəlb etməklə siyasətdə qalmaq olmaz. Bu artıq siyasi iflasın sonudur.

**Elçin Zaman,**
***"İki sahil"***



# Co Baydenin sağalmaz "erməni xəstəliyi"

Vəli İlyasov

Hamımıza məlumdur ki, dünyada etibarsız və xəyanətkar erməniləri müdafiə edənlər, daha doğrusu onların daşını başlarına döyənlər var. Əslində belələri ən pis ermənidən də pisdirlər. Hətta indi bir çox ermənilər var ki, əsl həqiqəti danışır, Türkiyənin və Azərbaycanın haqlı mövqelərini dəstəkləyirlər. Təəssüf ki, əsl həqiqəti söyləyənlərin əksinə olan Co Bayden kimiləri də var.

Həmişə ermənipərəst mövqeyi ilə tanınan ABŞ-ın keçmiş vitse-prezidenti Co Bayden bu günlərdə Amerikada fəaliyyət göstərən erməni diaspor təşkilatı "Hay Dat ABŞ" Komitəsinə (ANCA) məktub göndərib.

Amerikalı başabəla diplomat məktubunda Birləşmiş Ştatların qondarma erməni soyqırımı ilə bağlı mövqeyini birdəfəlik təsdiq etməli olduğunu bildirərək yazır: "Birləşmiş Ştatlar bir daha erməni soyqırımı ilə bağlı mövqeyini bildirməlidir. 1.5 milyon erməni kişisinin, qadınının və uşağının ölümünə, 2 milyon ermənini kütləvi şəkildə evlərindən didərgin düşməsinə səbəb olan dəhşətli həqiqəti heç vaxt xatırlamamaq və susmamalıyıq. Soyqırım faktını xatırlamamaq və tanımamaq gələcəkdə kütləvi vəhşiliklər üçün yeni yollar açır".

Həmişə ABŞ-dakı erməni diasporuna yaxınlığı ilə fərqlənən, "ağsaqqallıq" edərək onlara yol göstərən keçmiş vitse-prezident və senator Co Bayden həmişə əsassız erməni iddialarını bu cür yalançı faktlarla yenidən "diriltməyə" təşəbbüs göstərib.

Məktubdan dərhal belə anlaşılır ki, müəllif bu cızmaqarasını türklərə nifrətinin nəticəsi olaraq "qələmə alıb." Hələ bu azmış kimi ətiacı senator böyük türk xalqını "vəhşi" adlandırmaqla misli görünməmiş bir qəbahət işlədib. Ancaq ABŞ kimi superdövlətdə yüksək post tutmuş adama yalançılıq və riyakarlıq heç yaraşmır.

Görünür, ona ötürülən külli miqdarda Ermənistan dramı senatorun gözlərini elə bağlayıb ki, hətta o, istəsə də həqiqəti görə bilməyib. Co Bayden səviyyəli siyasətçi və dövlət adamı bilməyə borcludur ki, 1915-ci ildə hətta onun ata-babasını da erməni saysaq Yer kürəsində ermənilərin sayı 800 mini keçmirdi. Qalan iki milyon yeddi yüz mini görəsən senator Co Bayden haradan alıb? Yəqin Co Baydenin ulu babaları Avropadan silahlanıb okeanın o tayına hücum edərək yerli zəncilləri amasızcasına qıraraq "demokratik" dövlət qurandа qətlə yetirdikləri günahsız adamların statistikasını bu cür -Baydensayağı aparıblar.

Xatırladaq ki, 2015-ci ildə Ermənistanın dünyaya saldığı haray-həşirə cavab olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidentinə bu məsələdə maraqlı olan bəzi digər dövlətlərin başçılarına müraciət etdi ki, gəlin arxivləri açaq və bütün dünya cinayətkarın, xəyanətkarın və daha çox əziyyət çəkənin kim olduğunu bilsin. Ərdoğanın bu bəyanatından sonra sanki "qurbağanın gölünə daş atıldı" və hücum edənlər geri çəkildilər. İlk növbədə Ermənistan arxivlərin açılmasına razı olmadı. Çünki yaxşı bilirlər ki, 1915-ci ildə ermənilər Antanta tərəfindən müharibəyə cəlb edilmiş Türkiyəyə arxadan zərbə vururdular və buna görə də bir neçə yüz satqın erməni haqlı cəzalarına çatdırılmışdılar. Türkiyənin məhvinə, sərhədlərini düşmən ordularının üzünə açmaq niyyətində olan xain ermənilərin ailələri ölkənin ucqarlarına köçürüldülər.

Qondarma "soyqırımı" isə erməniləri himayə edən bolşevik Rusiyasının və bəzi antitürk dövlətlərin quraşdırması idi. Bu faktdır ki, həmin dövlətlər saxta soyqırımı məsələsini 1965-ci ildə qaldırdılar. Sual oluna bilər ki, belə bir faciə olmuşdusa onlar əlli il niyə susublar? Məlumdur ki, həmin dövlətlər Türkiyəni təzyiq altında saxlamaq üçün sonradan hər ilin aprel ayında bu qondarma məsələni şişirtdilər. Co Bayden isə əsl "rekord" qırıb, o, rəqəmi şişirdərək bir neçə yüz nəfəri milyon yarıma çatdırıb. Belə "quyruqlu" yalan hələ olmamışdı. Yəqin ermənisevərlər hələ bu rəqəmi getdikcə qaldıracaqlar, ona görə də təəccüblənmək lazım deyil. Bu, dünyada "erməni xəstəliyi" deyilən ən nadir xəstəliyin simptomlarıdır və o, Co Bayden kimi adamlarda özünü büruzə verir.

# Azərbaycan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşmasında mühüm rol oynayır



**Son dövrlərdə Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regionda fərqli qütblər arasında geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda stabil və balanslı xarici siyasət yürüdən Azərbaycan yeni siyasi və iqtisadi dividentlər əldə etməyi hədəfləyib.**

Bu barədə danışdıqda, ilk növbədə, qeyd etmək lazımdır ki, Azərbaycan indiyədək bir çox regional layihələrin həyata keçirilməsində aparıcı rol oynayıb. Bununla da Azərbaycan özünün regional və qlobal aparıcı qüvvələr üçün dəyərli tərəfdaş olduğunu sübut edib. Bu mənada Azərbaycan, həmçinin Şimal-Cənub layihəsinin tərəfdaşı olmaqla öz tarixində yeni əsrərəngiz bir səhifə açmağa hazırdır.

Heç şübhəsiz, sözügedən layihə qonşu dövlətlərlə və beynəlxalq tərəfdaşlarla əldə olunan sıx əməkdaşlıq sayəsində ölkə iqtisadiyyatına xeyli gəlir gətirəcək. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. Həmin dəhliz Avropa-Cənubi Asiya-Yaxın Şərq arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcək.

Belə görünür ki, Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi Azərbaycan, İran İslam Respublikası və Rusiya Federasiyası ərazisində dəmir yolu əlaqələrinin, həmçinin bu ölkələrin tranzit və iqtisadi potensialının gücləndirilməsinə xidmət edəcək. Eyni zamanda, yüklərin bu istiqamətə axınına təkan verəcək.

Şimal-Cənub layihəsi, eyni zamanda, Azərbaycan üçün böyük siyasi əhəmiyyətə malikdir. Ölkəmizin özünü əhəmiyyətli regional tərəfdaş kimi sübut etməsindən əlavə, Rusiya və İranla üçtərəfli əlaqələrin yaxşılaşdırılması artmaqda olan iqtisadi potensialın siyasi təsir dairəsinin güclənməsinə gətirib çıxardığının bariz nümunəsidir. Bir sözlə, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Azərbaycana yaxın gələcəkdə daha geniş iqtisadi və siyasi imkanlar verə bilər. Bu mənada Azərbaycanın bu dəhlizdən gözləntiləri çoxdur.

Nəticədə Azərbaycanın tranzit potensialının artırılması istiqamətində görülən işlər Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin ölkəmizin ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsini zəruri edib. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 dekabr 2015-ci ildə "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncam imzalayıb. Həmin Sərəncama uyğun olaraq bütün qüvvələr səfərbər olundu.

Sözügedən layihənin reallaşdırılması məqsədilə Azərbaycanın Astara stansiyası ilə İranın Astara stansiyası arasında 9,7 km dəmir yolu xətti və iki ölkə sərhədində 82,5 m uzunluğu olan körpü inşa edilib. Bundan başqa, ikitərəfli razılaşmaya əsasən, "Azərbaycan Dəmir Yolları" QSC İran ərazisində 35 hektar ərazidə yük terminalı inşa edərək onu 25 illik müddətə və sərhəddən terminaladək tikdirdiyi 1,4 km uzunluğunda dəmir yolunu 15 illik müddətə icarəyə götürüb. Qeyd olunan terminalda quru yüklərin aşırılması artıq həyata keçirilir. Bu marşrutun Qəzvin-Rəşt (175 km) hissəsinin tikintisi tamamlanıb. Samur çayı üzərindən Samur (Azərbaycan) - Yaraq Qazmalar (Rusiya) avtomobil körpüsünün inşası isə davam etdirilir.

Bu istiqamətdə görülən işlərdən bəhs edərkən onu da bildirmək lazımdır ki, ötən il İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycana səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Saziş"i imzalanıb.

"Şimal-Cənub nəqliyyat dəhlizi 3 ölkənin, ümumilikdə dünyanın əhəmiyyətli hissəsinin gözlədiyi və fayda götürəcəyi layihədir. Bu layihə vasitəsilə Şimaldan başlayaraq gələn yüklər Asiya ölkələrinin böyük bir qisminə olduqca qısa zamanda çatacaq. İndiyədək bu yüklərin daşınması üçün müxtəlif nəqliyyat marşrutlarından istifadə edilməklə həyata keçirilir və buna xeyli müddət sərf edilir. Bu da məhsulun maya dəyərini kifayət qədər artırır". Bu barədə "İki sahil" qəzetinə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə bildirib.

Onun sözlərinə görə, yüklərin Azərbaycan üzərindən dəmir yolu vasitəsilə Avropa və Rusiyadan Asiyaya və ya əks istiqamətdə daşınması onun qısa zamanda çatdırılmasına imkan verir: "Bu, məhsulun maya dəyərinin azalmasına, yeni iş yerlərinin yaranmasına, ölkələrin iqtisadi inteqrasiyasına, ən əsası isə regionda sülhün və sabitliyin yaranmasına böyük töhfədir. Azərbaycanın da fəal iştirak etdiyi bu layihədə hər bir ölkə onun qısa zamanda ərsəyə gəlməsində maraqlıdır".

A.Mirzəzadə vurğulayıb ki, Azərbaycan üçün layihənin digər bir əhəmiyyəti bu nəqliyyat dəhlizi ilə ölkə üzərindən keçən yüklərin bir hissəsinin Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Türkiyə və ona yaxın regionlara da daşına bilinməsidir.

Deputat xatırladıb ki, Azərbaycanın iştirakçısı olduğu Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi əvvəlki layihələr kimi, regiondakı digər ölkələrin də maraqlarına cavab verir.

Qeyd edək ki, 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası Saziş əsasında Şimal-Cənub nəqliyyat dəhlizinin təməli qoyulub. Azərbaycan bu Sazişə 2005-ci ildə qoşulub. Ümumilikdə 13 ölkə sözügedən Sazişi ratifikasiya edib.

Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır (hazırkı marşrut üzrə çatdırılma vaxtı 45-60 gündür , Şimal-Cənub vasitəsilə 14-20 gün olması gözlənilir).

Dəhliz vasitəsilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatarlara yüklənməsi və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiya, oradan da Şimali Avropa ölkələrinə çatdırılması planlaşdırılır.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

## "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər"




AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" kitabının ikinci nəşri çapdan çıxıb.

Nəşrdə müəllifin Naxçıvanın elmi, ədəbi və mədəni mühitinə həsr edilən və müxtəlif illərdə qəzet, jurnal və toplularda çap olunan məqalələri toplanılıb. Məqalələrdə şair və yazıçılardan Nadim, Cəlil Məmmədquluzadə, Əliqulu Qəmküsar, Hüseyn Cavid, Seyid Səbri, Hüseyn Razi, o cümlədən elm, maarif və mədəniyyət xadimlərindən Mirbağır Mirheydərzadə, Məmmədhüseyn Təhmasib, Ağa Məhəmməd Əkbərov, Həsənbəy Qazıyev və Şamil Qazıyevin fəaliyyəti, onlarla bağlı bəzi məsələlər yer alıb.

Kitabda, həmçinin Naxçıvan teatrının yaranması, muxtar respublikanın elmi mühitinin yetirmələrinin müxtəlif nəşriyyatlar tərəfindən çap edilən kitablarına rəylər, müəllifin müsahibə və təəssüratları öz əksini tapıb.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Müxtəlif köməkçi materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25158-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 17.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və bir surəti olmaqla 24.10.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 AZN (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsini 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Xüsusi qeyd:***

• Müsabiqə üzrə nəzərdə tutulmuş avans məbləği təklifin dəyərinin 50%-dək olması tövsiyyə edilir.

• Nəzərinizə çatdırırıq ki, müsabiqə təklifi üzrə təqdim edilən avans məbləği 50%-dən yuxarı olan təkliflər SOCAR-ın Satınalmalar Komitəsi tərəfindən təsdiq edilmiş qərara əsasən qəbul edilə bilər.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:** Rövşən Feyzullayev
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
Tel: +994 50 842 52 52
Tel: +994 55 790 91 81
Elektron ünvan: rovshen.feyzullayev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 24.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**müxtəlif təyinatlı mallara və kabellərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29031-19) elan edir.**

Lot 1: müxtəlif təyinatlı mallar
Lot 2: yağlar
Lot 3: kabellər

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* - Müsabiqədə iştirak haqqında müraciət;
* - İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* - Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 03.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 10.10.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Keçiriləcək müsabiqənin iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər:
Lot 1 üçün 236 AZN (ƏDV daxil),
Lot 2 üçün 59 AZN (ƏDV daxil),
Lot 3 üçün 59 AZN (ƏDV daxil),
və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Xaricdən və valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:
TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Vasitəçi bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Vasitəçi bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar: Tətbiq olunmur.***

**Müsabiqə təklifinin təminatı:**

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 0%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 0 %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin hər üç lot üzrə 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-i qədər ola bilər.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:** Nəsimi Sultanov.
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994125210000 (daxili 29 694)
nasimi.sultanov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Müsabiqənin təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 10.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə LOT 1 üzrə saat 11:00-da, LOT 2 üzrə isə saat 11:25-də, Lot 3 üzrə isə saat 11:45-də elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 174 (7429) / Çərşənbə axşamı, 24 sentyabr 2019-cu il


# MOBİL TELEFONLAR: zərurət, yoxsa təhlükə?



Məlum olduğu kimi, mobil telefonlar gündəlik həyatımızda ən çox işlətdiyimiz texnoloji alətlərdən birinə çevriliblər. Bunu da unutmayaq ki, həddindən artıq "dəyər" verdiyimiz bu texnoloji alətlərin nə qədər xeyirli tərəfi varsa, bir o qədər də ciddi və təhlükəli tərəfləri var.

İnsanlar gündəlik olaraq təxminən dörd saat mobil telefondan istifadə edirlər. Bəzi hallarda bu rəqəm hətta 10-a kimi qalxa bilir. Telefondan istifadə zamanı səhv formada dayanmaq və oturmaq onurğa sütununda kifayət qədər ciddi zərərlərə gətirib çıxara bilər. Məsələ ondadır ki, başınızı aşağı sallayaraq onurğa sütununun yükünü artırmış olursunuz. Telefonda daha çox vaxt keçirən insanların qozbelə çevrilmək ehtimalı daha çoxdur. Odur ki, qədd-qamətiniz barədə düşünməyə dəyər.

Saatlarla gözlərinizi "mavi ekran"lara yönləndirərək, boyunu əyri və aşağı istiqamətdə saxlayaraq mesaj yazmaq çiyin, boyun və baş ağrılarına səbəb olur. Telefona baxmaq üçün qabağa əyildikdə başın ağırlığı onurğaya əlavə yük salır ki, bu da müəyyən ağrılara səbəb olur. "Ağıllı" telefonla çox yazı yazmaq, ya da davamlı oyun oynamaq bilək və barmaq toxumalarını yorduğu üçün ağrılara səbəb ola bilər. Sözsüz ki, bütün bunlar kifayət qədər ağır fəsadlara gətirib çıxarır. Odur ki, telefonda hər hansı mətn oxuyarkən son dərəcə diqqətli olun, başınızı çox aşağı əyməyin, qaməti isə düz saxlayın. Bütün yükün onurğa sütununa düşməməsi üçün telefonu maksimum yuxarıda tutmağa çalışın.

Telefonun batareyasını doldurmaq üçün boş otaq seçməyiniz həm sizin, həm də ailə üzvlərinizin sağlamlığı üçün daha məsləhətlidir. Telefonunuz elektrik cərəyanında olan zaman ondan istifadə etməyin. Bu, həm sizin, həm telefonunuz üçün çox zərərlidir.

Hamiləlik müddətində mobil telefondan çox az, daha yaxşı olar ki, ümumiyyətlə, istifadə edilməsin. Əks halda bu, dünyaya gələcək uşağın əqli, psixoloji, fiziki sağlamlığı üçün ciddi fəsadlar yaradacaq. Erkən yaşda mobil telefon və radiasiya yayan cihazlara məruz qalan uşaqların zəka inkişafının daha az olduğu iddia edilir. 12 yaşından etibarən inkişafın başlaması və 21 yaşına qədər davam etməsini araşdıran mütəxəssislər bu yaş aralığında mobil telefon istifadə etməməyi məsləhət görür. Artan radiasiya, şüa, gələcək nəsillər və yeni doğulacaq uşaqlarda bəzi xəstəliklər yaradacaq.

Mütəxəssislərin fikrincə, əgər mobil telefon vacib lazımdırsa, onu özünüzdən uzaq tutaraq, qısa müddət ərzində istifadə etməlisiniz, amma gecə yatanda başınızın altına əsla qoymayın. Çünki gecə boyunca alacağınız radiasiya zamanla ürək xəstəliyi, təzyiq və s. kimi xoşagəlməz hallar yaradacaq.

Nömrə yığarkən və ya şəbəkə axtarışı vaxtı mobil cihazı qulağınızın yanında saxlamayın. Mobil telefonu zəngə cavab verildikdən və ya şəbəkə tapıldıqdan sonra qulağınıza tutsanız daha yaxşı olar. Danışıq zamanı telefonu tutduğunuz qulağınızı dəyişin. Telefonu üç ildə bir dəfə yeniləyin. Çünki yeni aparatlar daha da zərərsiz olur.

Gözü, kiçik ölçülü şriftlərdən ibarət olan ekrana saatlarla zilləyərək oyunlar oynamaq, ismarıclar yazmaq görmə qabiliyyətini aşağı salır baş ağrıları yaradır. Şüanın təsirindən gözdə quruluq, qızartı əmələ gəlir, göz qapaqlarını açıb-bağlayarkən narahatlıq hissi yaranır. Ümumiyyətlə, mobil telefondan istifadə yetkinlik yaşına çatmayanlarda göz zəifliyinə meyil yaradır.

"Ağıllı" telefonların vurduğu ziyanlardan biri də yuxusuzluq problemidir. Çoxlarımız istirahət edən zaman belə, onlardan ayrıla bilmədiyimizə görə yata bilmirik. Yuxu pozulmalarının qarşısını almaq üçün yatmadan bir, hətta mümkünsə iki saat öncə televizor, kompyuter, telefon və tablet ekranlarından uzaq dayanmaqdır.

Yəqin ki, siz də bunun şahidi olmusunuz ki, sürücülər maşın sürən zaman mobil telefonla danışırlar. Çox təəssüf ki, bu insanlar bununla nəinki özlərinin, hətta başqalarının həyatını belə təhlükəyə atırlar.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Brayl əlifbası necə yaranıb?

Brayl əlifbası ilk dəfə hərbi məqsədlə yaranıb. Napaleonun sifarişi ilə Şarl Barbe nöqtələrdən ibarət əlifba düzəldir. Bu əlifbanın məqsədi əsgərlərin qaranlıqda işıq istifadə etmədən məlumatları səssizcə oxuya bilməsi idi. Amma əsgərlər bu əlifbanı çox çətin öyrənirdilər. Çünki əlifba çox çətin idi. Buna görə də əlifba istifadə



edilmirdi və istifadəsiz qalmışdı.

Lui Brayl bu əlifba ilə tanış olanda onun çatışmazlığını və əsgərlərin niyə əlifbadan imtina etmələrinin səbəbini tapır.

Əlifbada hər simvol 12 nöqtədən ibarət idi. Bu da əlifbanı çətinləşdirirdi. Brayl simvollarla nöqtələrin sayını 6-ya endirdi və bundan sonra əlifba sadələşdi.

Braylın yeni əlifbası görmə problemi olan insanlar tərəfindən istifadə edilməyə başlandı.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# Qədim insan sümükləri tapıldı

Alimlər Antarktidada qədim insan sümükləri tapıblar.

Milli.Az ölkə.az-a istinadən bildirir ki, 1800-cü illin əvvəllərində tədqiqatçılar tərəfindən kəşf olunan Antarktida indiyə qədər ən sirli qitə olaraq qalır.

Antraktida haqqında "Üçüncü Reyx" in gizli bazası, itkin ekspedisiyalar və hətta yadplanetlilər haqqında əfsanələrlə dolu qəribə hekayələr dolaşmaqdadır.

**Bu qalın buz qatı, həqiqətən, nə gizlədir?**



2015-ci ildə NASA-nın alimləri Antarktidada meteorit tapıblar. Fərziyyəyə görə, o 13000 il bundan əvvəl Mars planetindən yerə düşüb.

Bu yaxınlarda qazıntılar zamanı arxeoloqlar qeyri-adi formalı uzunsov insan kəllələri aşkar ediblər. Alimlər hesab ediblər ki, qədim zamanlarda insanlar Antarktidada məskunlaşmayıblar.

Bundan başqa tədqiqatçılar 1990-cı illərin əvvəllərində Antarktidada dinozavrların qalıqlarını da aşkar etmişdilər. Onların iddiasına görə, bu qitədə 200 milyon il əvvəl canlı həyat olub. Buna misal olaraq, Antraktidada piramidaların olduğunu dəlil gətirirlər.



# Ramosdan Zidana dəstək

"Real"ın kapitanı Serxio Ramos Joze Mourinyonun komandaya qayıdacağı haqda yayılan xəbərlərə münasibət bildirib.

Milli.Az qol.az-a istinadla yazır ki, təcrübəli müdafiəçi hazırkı baş məşqçi Zinəddin Zidana dəstəyini ifadə edib.

"Köhnə nəticələrə baxmayaraq, biz Zidanlayıq. Başqa məşqçilər barədə danışmaq hörmətsizlik olar. Hər xal itkisi olanda hamı vəziyyətin gərginliyindən danışır. Amma uğura gedən yol uzundur və xal itkiləri də olur".

# Ayın ən yaxşı oyunçusuna balıq verildi

Norveçli futbolçu Martin Edeqor İspaniyanın "Real Sosyedad" klubunda avqust ayının ən yaxşı futbolçusu seçilib.

Milli.Az xəbər verir ki, La Liqa klubu 20 yaşlı yarımmüdafiəçiyə şampan və ya başqa heykəltəraşlıq nümunəsi bağışlamayıb. Maraqlı addım atan klub Edeqora böyük balıq hədiyyə edib.

Buna səbəb isə "Real Sosyedad"ın BM supermarket şəbəkəsi ilə reklam müqaviləsinin olmasıdır.

**ELAN:**

***Abşeron rayonu, Novxanı bağları 3, ev 29 ünvanındakı yaşayış sahəsi üzrə Balaxanım Məhərrəm qızı Seyidovanın adına verilmiş Dövlət Reyestrindən Çıxarış itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın "Azneft" İB-nin "Qaz Anbarlarının İstismarı" İdarəsinin rəisi Xaliq Şəfiyev, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azəriqaz" İB-nin Mexanika və energetika şöbəsinin rəisi Cahid Hüseynova, atası **Əlsəf Hüseynovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini: **İsmayıl Hacıyev**
Baş redaktorun müavini: **Rəşad Bağırov**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB38030019443700306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 24.09.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8182**
*İndeks:* **0151**, *Sifariş:* **3115**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.